DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 8 (313) / AVQUST 2017-Cİ İL



## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mənəvi kamillik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək gündə bir daha hamınıza ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

**Qurban bayramınız mübarək olsun!**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 29 avqust 2017-ci il.**



VƏTƏNƏ VƏ XALQA LAYİQLİ XİDMƏT MİSSİYASI

Səh. 2



"İSLAM HƏMRƏYLİYİ İRAN-AZƏRBAYCAN DOSTLUĞU TİMSALINDA"

Səh. 3

Qafqaz Müsəlmanları İdarəsi Qurban bayramı münasibətilə fətva verib

Səh. 6



Qarabağ bölgəsində dini durum: qısa tarix və müasir vəziyyət (I yazı)

Səh. 10



TƏQVİMLƏR TARİXİNDƏN

Səh. 11



QURBAN BAYRAMI: BİRLİYİN VƏ YARDIMLAŞMANIN TƏCƏSSÜMÜ

Səh. 12



ALMANİYADA İSLAM

Səh. 13

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ SAMUXDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, avqustun 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Samux rayonunda bölgə vətəndaşlarını qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev Ümummilli Lider Heydər Əliyevin onun adını daşıyan Mərkəzin qarşısındakı abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda DQİDK sədri Gəncə, Naftalan şəhərlərinin, Daşkəsən, Göygöl, Goranboy, Samux rayonlarının sakinlərinin müraciətlərinə baxıb.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin dini təyinatlı kitablarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərə dair müraciətlər isə aidiyyəti qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

# VƏTƏNƏ VƏ XALQA LAYİQLİ XİDMƏT MİSSİYASI



*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Mübariz Qurbanlının "Azərbaycan qəzeti"nin 26 avqust 2017-ci il tarixli sayında "Vətənə və xalqa layiqli xidmət missiyası" başlıqlı məqaləsi dərc olunub.*

Məqalədə qeyd olunub ki, tarixən başqa millətlərə və səmavi dinlərə, fərqli mədəniyyətlərə dözümlü yanaşması ilə seçilən Azərbaycanda bu gün də tolerantlıq mühiti müşahidə edilməkdədir. Xalqımız tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən qoruyaraq saxlamış və nəsildən-nəslə ötürmüşdür. Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmamış, əksinə, daha böyük istəklə onlara sarılmışdır.

Məqalədə bildirilib ki, ömrünün sonunadək milli-mənəvi dəyərlərimizə sadiq qalmış, onun qorunmasının və inkişafının hamisi olmuş Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbilə hakimiyyətə qayıtdıqdan sonra ölkədə dini, milli, etnik münasibətlərin yüksək səviyyədə tənzimlənməsi, vicdan azadlığının tam qorunması istiqamətində ardıcıl addımlar atmışdır. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyamızda vicdan azadlığının birmənalı təsbit edilməsi, həmçinin bununla bağlı müddəaların həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı sahəsində qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin olunması və dini qurumların qeydiyyata alınması məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması, dini sahədə qanunvericiliyin daim təkmilləşdirilməsi ölkəmizdə mövcud olan etnik-dini tolerantlığı gücləndirən əsas addımlar olmuşdur.

Ümummilli Liderin başlatdığı şərəfli missiyanın bu gün də layiqincə davam etdirildiyini qeyd edən Mübariz Qurbanlı Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etməyə başladığı ilk gündən azsaylı xalqlara, milli-dini azlıqların nümayəndələrinə həssaslıqla yanaşdığını, onların problemlərinin həlli üçün bütün lazımi tədbirləri həyata keçirdiyini vurğulayıb. Milli-mənəvi dəyərlərin dirçəldilməsinə, o cümlədən yeni dini məbədlərin inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayıran dövlət başçısının sərəncamları ilə son illər tarixi-dini abidələr, ziyarətgahlar bərpa edilmiş, dini-mənəvi dəyərlərin qorunması istiqamətində silsilə tədbirlər həyata keçirilmişdir. Ötən ilin aprel döyüşlərində qəhrəman əsgərlərimizin düşmən tapdağından azad etdiyi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində cənab Prezidentin quruculuq, abadlıq işlərinin aparılması ilə əlaqədar imzaladığı sərəncama uyğun olaraq Şuşa məscidinin layihəsinə uyğun məscid inşa edilməsini xüsusi vurğulamaq lazımdır. M.Qurbanlının sözlərinə görə, Azərbaycan dövlətinin işğaldan azad edilmiş bölgələrdə böyük quruculuq işləri aparması, milli-mənəvi dəyərlərimizi özündə ehtiva edən abidələrimizi bərpa etməsi bir daha göstərir ki, Ermənistanın məqsədyönlü şəkildə tarixi yaddaşımıza məxsus olan abidələrimizi məhv etmək cəhdi iflasa uğrayacaqdır.

Dövlət Komitəsinin sədri məqaləsində yarandığı gündən Ulu Öndərin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan ideyalarının ictimai şüurda möhkəmlənməsinə çalışan Heydər Əliyev Fondunun fəaliyyətinə də xüsusi toxunub. O vurğulayıb ki, Fondun hər kəsdə fərəh və qürur hissləri doğuran fəaliyyətinin əsasında, şübhəsiz, onun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı dayanır: "Mehriban xanım Əliyevanın bəyan etdiyi kimi, Fondun çoxşaxəli fəaliyyətinin bir əsas məqsədi var - insanlara təmənnasız yaxşılıq etmək.

Ölkəmizdə tolerantlıq düşüncəsinin inkişafında xüsusi xidmətləri olan Fondun vətənpərvər fəaliyyətindən geniş bəhs olunan məqalədə dünyanın bir sıra nüfuzlu qurumlarının savadsızlığın aradan qaldırılmasına, gender bərabərliyinə, milli-mədəni müxtəlifliyin, habelə uşaq hüquqlarının qorunmasına, sivilizasiyalararası dialoqun genişləndirilməsinə, etnik, dini, irqi ayrı-seçkiliyin aradan qaldırılmasına həsr olunmuş tədbirlərinin paytaxtımızda təşkil olunmasında bilavasitə Fondun rol oynadığına diqqət çəkilib. Qeyd edilib ki, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi də öz fəaliyyətində mədəniyyətlərarası dialoq, ölkəmizin tolerantlıq və multikulturalizm kimi ali dəyərlərinin təbliği məsələlərinə xüsusi diqqət yetirir. Fondun vitse-prezidenti və Moskva nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə kitabların nəşr olunması, konfransların keçirilməsi, eləcə də bəşər tarixində ən dəhşətli cinayətlərdən olan Xocalı soyqırımı ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə "Xocalıya ədalət!" kampaniyasının həyata keçirilməsi dövlətimizin bu sahədəki nümunəvi siyasətinin təbliği işinə dəyərli töhfələrdir.

Dövlət Komitəsinin sədri nəzərə çatdırıb ki, ölkəmizin birinci xanımının sədri olduğu Təşkilat Komitəsi tərəfindən yüksək səviyyədə reallaşdırılmış "Eurovision-2012" musiqi yarışı, 2015-ci ildə I Avropa Oyunları, bu il isə IV İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq səviyyəli musiqi, mədəniyyət və idman tədbirləri təkcə təşkilatçılıq işinə yeni standartlar gətirməmiş, eyni zamanda Azərbaycanın zəngin mədəniyyətə, idman ənənələrinə, tolerantlığa malik ölkə olduğunu, burada uzun illərdir ki, müxtəlif dini baxışların, ayrı-ayrı xalqların nümayəndələrinin dostluq və mehribanlıq, qarşılıqlı anlaşma şəraitində yaşadıqlarını bütün dünyaya nümayiş etdirmişdir.

Məqalədə göstərilib ki, fəaliyyətində daim milli mənafeyi öndə tutan Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin milli-mənəvi irsinin beynəlxalq miqyasda tanıdılması istiqamətində gördüyü işlər olduqca təqdirəlayiqdir. Ümumiyyətlə, Fondun ölkəmizin zəngin mədəni-mənəvi irsinin dünyada tanıdılması, sivilizasiyalararası dialoq təşəbbüsləri, eyni zamanda maarifçiliyə xidmət edən çoxsaylı layihələrinin arxasında yalnız bir məqsəd var: Azərbaycan xalqının milli mənafeyinin qorunması istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinə dəstək vermək.

Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyəti ilə yanaşı, xeyriyyəçilik işlərinə də xüsusi yer verilən məqalədə bildirilib ki, Mehriban xanımın nəcib əməllərinə görə həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda layiq görüldüyü çoxsaylı mükafatlar, fəxri adlar, təltiflər, xüsusilə də dövlət başçısının sərəncamı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması bütün xalqımızı, o cümlədən Yeni Azərbaycan Partiyasının üzvlərini hədsiz sevindirir. "…Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, …xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir" - deyən Mehriban xanım Əliyeva bu seçimə sadiq qalaraq üzərinə götürdüyü çətin, lakin xoşməramlı missiyasını artıq həm də ölkəmizin Birinci vitse-prezidenti kimi layiqincə davam etdirir.

"Yalnız vətənpərvərlik hissi, Vətənə sonsuz sevgidən qaynaqlanan ali duyğular insanı olduqca çətin, lakin xalqın, dövlətin gələcəyi baxımından strateji əhəmiyyətli işlər görməyə sövq edə bilər və Mehriban xanım Əliyevanın humanizm, işgüzarlıq, qayğıkeşlik kimi ali keyfiyyətlər üzərində qurulan ictimai-siyasi fəaliyyəti onun gerçək vətəndaşlıq mövqeyində dayanmasının, nümunəvi vətənpərvərliyinin ən bariz sübutudur!", - deyə müəllif bildirir.

## Mehriban Əliyeva: Mən Azərbaycanın əsas sərvətinə - xalqımıza inanıram

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva doğum günü ilə əlaqədar çoxsaylı təbrik məktubları alıb. Mehriban xanım ona səmimi sözlər ünvanlayanların, xoş arzular bildirənlərin hamısına müraciət edərək dərin minnətdarlığını ifadə edib. Müraciətdə deyilir:*

*"Əziz dostlar,*

*Bu günlərdə mənim ünvanıma doğum günü münasibətilə təbriklər daxil olur. Mənə bizim həmvətənlərimiz, müxtəlif nəsillərdən və peşələrdən olan insanlar yazırlar. Mən, həmçinin xaricdən təbriklər alıram. Səmimi təbriklərə və uğurlar arzularına görə hamıya ürəkdən təşəkkür edirəm.*

*Əziz dostlar,*

*Belə bir gündə sizin səmimiyyətinizi bir daha hiss etmək mənə çox xoşdur. Mən sizin səmimi təbriklərinizdən çox təsirlənmişəm. Bu, həqiqətən ruhlandırır və müsbət, yaradıcı enerji verir. Mənim hər zaman hiss etdiyim rəğbətinizə, sevgi və dəstəyinizə görə çox sağ olun.*

*Mən sizinlə bizim ümumi potensialımıza, insan kapitalımıza inanıram, mən Azərbaycanın əsas sərvətinə - xalqımıza inanıram.*

*Göstərdiyiniz diqqətə görə hər birinizə təşəkkür edirəm. Sizin hamınıza, yaxınlarınıza və sizə əziz olan insanlara cansağlığı, uğurlar, səadət və rifah, Vətənimizə isə sülh və tərəqqi arzu edirəm.*

*Səmimiyyətlə,*

*Mehriban Əliyeva"*

# "İSLAM HƏMRƏYLİYİ İRAN-AZƏRBAYCAN DOSTLUĞU TİMSALINDA"

*Avqustun 6-da Tehranda "İslam Həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında" mövzusunda konfrans keçirilib. Konfrans Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ili ölkədə "İslam Həmrəyliyi İli" elan etməsi ilə bağlı müvafiq Sərəncamına uyğun olaraq Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), İran İslam Respublikasının (İİR) İslam Məzhəblərinin Yaxınlaşdırılması Beynəlxalq Assosiasiyası (İMYBA), eləcə də Mədəniyyət və İslam Əlaqələri Təşkilatının birgə təşkilatçılığı ilə baş tutub.*



İranın nüfuzlu din xadimləri, xarici işlər və mədəniyyət nazirliklərinin nümayəndələrinin iştirak etdiyi konfransı İMYBA-nın baş katibi Ayətullah Möhsün Əraki açaraq, hazırki mürəkkəb tarixi mərhələdə İslam həmrəyliyinin əhəmiyyətindən danışıb. M.Əraki qeyd edib ki, son zamanlar İslama qarşı qərəzli mövqe müşahidə edilir və onun adı terrorçuluqla bərabər çəkilir. Bu kimi qərəzli mövqelərin qarşısını almaq üçün İslamı düzgün təbliğ etmək və insanlara bu dinin mahiyyətini izah etmək lazımdır.

QMİ sədri şeyxülislam Allahşükür Paşazadə öz çıxışında bildirib ki, Azərbaycan və İran xalqları bir-birinə qırılmaz tellərlə bağlıdır. İki ölkə arasında tarixən formalaşmış dostluq və qardaşlıq münasibətləri, ortaq dini dəyərlər, məzhəb birliyi dövlətlərin və xalqların daha da yaxınlaşmasına zəmin yaradır. Azərbaycanda "İslam Həmrəyliyi İli" qeyd edildiyi bir vaxtda İranda bir araya gəlməyimiz xüsusilə önəmlidir. Zəmanəmizin kabusuna çevrilmiş dini və milli zəmindəki ekstremizm, ksenofobiya, radikalizm, təkfirçilik, terrorizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranının yaşandığı dönəmdə bəşəriyyətə nicat verəcək ideyaların varlığına ehtiyac duyulur. Belə bir məqamda Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın tarixi kökləri və milli irsinə söykənərək qlobal səviyyədə ümumbəşəri ideyaların carçısı kimi çıxış edir. Cənab Prezident "Multikulturalizm İli"nin ardınca 2017-ci ili "İslam Həmrəyliyi ili" elan edərək terrorçuluğa, milli və dini zəmində münaqişələrə həmrəyliklə qalib gəlmək ideyasını ortaya qoyub.

İranın keçmiş xarici işlər naziri Mənüçöhr Möttaki çıxış edərək, Azərbaycanda İslam dininə yüksək dəyər verildiyinin sevindirici hal olduğunu bildirib. Qeyd olunub ki, hər iki xalqın eyni dinə və məzhəbə mənsub olması əlaqələrin inkişafına böyük təkan verir.

DQİDK-nın sədri Mübariz Qurbanlı nəzərə çatdırıb ki, müasir dünyanın elə bir regionu yoxdur ki, orada ekstremist qruplaşmalar tərəfindən terror aktları törədilməsin. Təəssüflər olsun ki, adətən bu terror aktları İslam pərdəsi altında gizlənən, amma əsl İslama heç bir aidiyyəti olmayan terrorçu dəstələr tərəfindən həyata keçirilir. Ən dəhşətlisi isə odur ki, bu cür hadisələrin qurbanı daha çox müsəlmanlar olmasına baxmayaraq, qınanan da məhz onlar olur. Ümumiyyətlə, din və terrorizm bir-birinə zidd anlayışlardır. Əsl dinin olduğu yerdə ekstremizmə və radikalizmə yer yoxdur.

M.Qurbanlı bildirib ki, bu ilin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi bizim üçün qürurverici olmaqla yanaşı, dövlətimizin İslam birliyinə olan həssas münasibətinin göstəricisidir.

Dövlət Komitəsinin sədri onu da vurğulayıb ki, ölkəmiz üçün ən böyük problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində biz digər müsəlman ölkələri kimi, İranın da dəstəyini həmişə hiss etmişik. İİR-nın Ali Rəhbəri Ayətullah Seyid Əli Xamneyinin Azərbaycan torpaqlarının işğalı ilə bağlı fikri açıq və konkretdir: "Qarabağ müsəlman torpaqlarıdır. Onun azadlığı uğrunda ölənlər şəhidlərdir".

İki ölkə arasında əlaqələrin yüksək səviyyəyə çatmasında Ümummilli Lider Heydər Əliyevin böyük rolu olduğunu deyən Milli Məclisin komitə sədri, Azərbaycan-İran parlamentlərarası işçi qrupunun sədr müavini Eldar İbrahimov öz çıxışında bildirib ki, Ulu Öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev İran ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Məhz Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində İran ilə Azərbaycan arasındakı əlaqələr bugünkü yüksək səviyyəyə çatıb.

Azərbaycanın Rusiyadakı səfiri, UNESCO-nun baş direktoru vəzifəsinə namizəd Polad Bülbüloğlu çıxışında qeyd edib ki, İran və Azərbaycan xalqlarının eyni dinə mənsubluğu hər iki dövlətin beynəlxalq arenada həmrəylik nümayiş etdirmələrini və nümunə göstərmələrini əsaslandırır.

Milli Məclisin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov təbliğat məsələlərində informasiyanın əhəmiyyətindən danışıb. Nəzərə çatdırıb ki, informasiyadan istifadə edən bəzi siyasi dairələr insanların düşüncəsinə təsir edərək münaqişələr yaradır və öz maraqlarını güdürlər. Bu kimi halların qarşısını almaq üçün alim və mütəfəkkirlər istər mediada, istərsə də sosial şəbəkələrdə fəal olmalıdırlar.

Konfransda İMYBA-nın müşahidə şurasının üzvü, böyük islamşünas alim Axund Rəhbəri, Ayətullah Məhəmməd Təsxiri, QMİ-nin Elmi-Dini Şurasının sədri, akademik Vasim Məmmədəliyev, İİR-nın Ali Rəhbərinin Azərbaycandakı nümayəndəsi Əli Əkbər Ocaqnejat, QMİ sədrinin birinci müavini, müfti Salman Musayev, İmam Sadiq Universitetinin müəllimi doktor Derəxşe və başqaları çıxış edərək İslam həmrəyliyindən danışıblar.

Sonda İİR Ali Dini Rəhbərinin beynəlxalq məsələlər üzrə müavini Ayətullah Möhsün Qumi bildirib ki, İslam həmrəyliyi yalnız müsəlman aləmində deyil, bütün dünyada sülhün və əmin-amanlığın bərpasına kömək edə bilər. Xalqlar və dövlətlər dünyanın inkişafı prosesində daima əlaqədə olublar. Xalqların arasında düşmənçiliyin yaranması cahillikdən irəli gəlir. Həmrəylik bu münaqişələrin yaranmasının qarşısını ala biləcək vasitədir.

Çıxış edənlər Azərbaycan Prezidenti İlham Əliyevin İslam həmrəyliyi ideyasını yüksək qiymətləndiriblər, bu ideyanın olduqca əhəmiyyətli olduğunu, müasir dünyanın məhz həmrəyliyə ehtiyac duyduğunu bildiriblər.

Sonra konfrans iştirakçıları arasında bir sıra məsələlər ətrafında müzakirələr aparılıb.

Konfransda Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov da iştirak edib.

# "İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ"

Avqustun 29-da Samuxda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Samux Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib.



Konfransda DQİDK-nın və RİH-in məsul işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə üzrə səlahiyyətli nümayəndəsi, eləcə də Qərb bölgəsində fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının əməkdaşları, dini işlər üzrə komissiyanın, YAP Samux rayon təşkilatının üzvləri, dini icma sədrləri, din xadimləri, idarə və müəssisə rəhbərləri, gənclər və ictimaiyyət təmsilçiləri iştirak ediblər.

Regional konfransın birinci panelində çıxış edən Samux RİH-in başçısı Alı Qocayev Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyini, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını diqqətə çatdırıb. O, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

Tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlının mövzu ilə bağlı məruzəsi dinlənilib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının müasir dövrün çağırışlarını özündə ehtiva etdiyini vurğulayan M.Qurbanlı Azərbaycanın İslam mədəni irsinin yaranması və qorunub saxlanılmasında önəmli məkanlardan biri kimi tanındığını bildirib.

Mübariz Qurbanlı qeyd edib ki, bu gün dünyada din pərdəsi altında insanlar arasında təfriqə salmaqla xaos yaratmaq xoşagəlməz reallığa çevrilib. Radikal dini təşkilat yaratmaq və yaxud onlara maddi-texniki dəstək verməklə öz məkrli niyyətlərini həyata keçirməyə çalışanlar müsəlman dünyasında qarşıdurmanı dərinləşdirməyə, İslam dünyasını zəiflətməyə, geridə saxlamağa, texnoloji cəhətdən inkişafını əngəlləməyə və yekun nəticədə coğrafi baxımdan böyük strateji əhəmiyyət daşıyan ərazilərdə hegemonluğa sahib olmağa cəhd göstərirlər.

Ona görə də bu gün müsəlman dünyasında din amilindən istifadə edərək yaradılan qarşıdurmaların qarşısını almaq üçün alternativ yollar arayıb tapmağa hər zamankından daha çox ehtiyac var. Bu yol isə dini tolerantlığın, birgəyaşayışın, multikultural dəyərlərin, eyni zamanda, müsəlmanlar arasında həmrəylik ideyasının təbliğ və təşviq olunmasından keçir. Məhz bu səbəbdən 2017-ci ilin Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan edilməsi təsadüfi sayıla bilməz.

Samux rayonunun axundu İlham Məmmədov da çıxış edərək regionlarda keçirilən bu konfransların məqsədinin Azərbaycanın müxtəlif bölgələrində cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması, dini mühitdə radikallığa meyillərin səbəbinin öyrənilməsi, dəyərləndirilməsi, bu meyillərin qarşısının alınması üçün səmərəli metodların aşkara çıxarılması, bu sahədəki kompleks tədbirlərin səmərəliliyinin daha da artırılması olduğunu diqqətə çatdırıb.

davamı səh. 4

# DQİDK-DA MÜŞAVİRƏ KEÇİRİLİB

***Avqust ayının 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) müşavirə keçirilib. Müşavirədə DQİDK-nın sədri, sədr müavinləri, eləcə də Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.***



Tədbirdə bu ilin “İslam Həmrəyliyi İli” elan edilməsinin önəminə toxunan DQİDK-nın sədri Mübariz Qurbanlı xalqımızı vahid ideologiya-Azərbaycançılıq ətrafında birləşdirən amillərin onun zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələri ilə yanaşı, həm də İslam dini olduğunu bildirib. O, xalqın dini dəyərlərinin və mədəniyyətinin qorunması istiqamətində dövlət başçısı cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasətə diqqət çəkib. “İslam Həmrəyliyi İli” ilə bağlı həyata keçirilən tədbirlər barədə məlumat verən Komitə sədri Prezident İlham Əliyevin Sərəncamı ilə hazırlanan Tədbirlər Planına əsasən Dövlət Komitəsinin müvafiq qurumlarla gördüyü işlər, planlaşdırdığı tədbirlər və qarşıda duran vəzifələrindən danışıb.

Gündəliyə uyğun olaraq, Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva və Lənkəran bölgəsi üzrə şöbənin müdiri Qağayı Məmmədovun hesabat məruzələri dinlənilib.

Məruzələrdə Dövlət Komitəsinin fəaliyyətinin kütləvi informasiya vasitələrində işıqlandırılması işinin təşkili, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi tərəfindən həyata keçirilən tədbirlər, bölgədəki dini durum haqqında məlumat verilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR

**21 avqust** – ***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov ABŞ səfirliyinin siyasi məsələlər üzrə müşaviri Villiam Solley ilə görüşüb.***

Qonağa ölkəmizdəki dini durum barədə ətraflı məlumat verilib və bildirilib ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı ölkə kimi tanınır. Respublikamızda islam və qeyri-islam dini icmalara fəaliyyətlərinin genişləndirilməsi, vicdan azadlığının təmin edilməsi məqsədilə dövlət tərəfindən mütəmadi olaraq qayğı göstərilir, maliyyə yardımı ayrılır.

***22 avqust – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qırğızıstan Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili Bakıt Yusupov ilə görüşüb.***

Qonağı səmimi salamlayan Komitə sədri Qırğızıstan Respublikası ilə Azərbaycan arasında tarixi kökləri olan dostluq münasibətlərindən danışıb. Bakıt Yusupov isə səmimi görüşə görə minnətdarlığını bildirib və Azərbaycan nümayəndə heyətini 28-29 sentyabr tarixlərində Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçiriləcək “Müasir dünyəvi dövlətdə İslam” adlı beynəlxalq konfransa dəvət edib.

Qarşılıqlı maraq doğuran məsələlərin müzakirə edildiyi görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı da iştirak edib.





# “İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ”

əvvəli səh. 3

Konfransın ikinci panelində “Dini radikalizmlə mübarizə və gənclərin maarifləndirilməsi” mövzusunda müzakirələr aparılıb.



Rayonun məktəb direktorlarının təlim-tərbiyə işləri üzrə müavinlərinin, məktəb psixoloqlarının, “Həyat bilgisi” fənnini tədris edən müəllimlərin, gənclərin iştirak etdikləri tədbiri giriş sözü ilə açan Samux RİH başçısı Aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Vüqar Tağıyev bu cür dini maarifləndirmə tədbirlərinin gənclər arasında milli-mənəvi və islami dəyərlərin qorunması istiqamətindəki rolundan danışıb.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliğinin düzgün aparılmasının zərərli dini cərəyanların yayılması cəhdlərinin qarşısının alınmasındakı rolunu qeyd edib. O, ənənəvi dini dəyərlərimizin mahiyyətindən bəhs edərək bu dəyərlərin qorunmasında, eləcə də dini radikalizmə qarşı mübarizədə maarifçilik işinin aparılmasının vacibliyinə toxunub. Sədr müavini bu istiqamətdə ardıcıl işlərin həyata keçirildiyini bildirərək milli-mənəvi dəyərlərə varislik və müasirlik prizmasından yanaşılmasının zəruri olduğunu diqqətə çatdırıb.

Daha sonra çıxış edən Samux rayon Gənclər və İdman İdarəsinin rəisi Rəşad Qarayev Dövlət Komitəsi ilə təmsil etdiyi qurumun gənclərin dini radikalizmlə mübarizə sahəsində maarifləndirilməsi istiqamətində mütəmadi olaraq birgə tədbirlər keçirdiklərini deyib və bu tədbirlərin əhəmiyyətindən bəhs edib. O bildirib ki, xüsusilə Azərbaycanda gənclər arasında mövcud olan dini tolerantlığın, multikulturalizm ənənələrinin, eləcə də milli-mənəvi və islami dəyərlərin qorunub saxlanılması və təşviqi çox vacibdir.

DQİDK-nın dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov İslamın yad təsirlərdən qorunmasının, dini radikalizmə qarşı mübarizədə hər kəsin yaxından iştirak etməsinin, bu sahədə maarifləndirmə işinin ardıcıl və məqsədyönlü şəkildə aparılmasının zəruriliyindən danışıb. O, məruzəsində müsəlman aləminin inkişafına mane olan amillərdən, İslam dininin dünyada həmrəyliyin təmin olunmasındakı əhəmiyyətindən bəhs edib.

Panel işini müzakirələrlə davam etdirib.

# "İSLAM HƏMRƏYLİYİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN FƏALİYYƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ"



Avqustun 23-də Şəmkir rayonu Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.

Seminar-müşavirədə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Şəmkir Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini-Sosial-iqtisadi məsələlər üzrə şöbənin müdiri Fəxrəddin Vəliyev, DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin müdiri Rasim Tağıyev və şöbənin əməkdaşları, RİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Ruhid Hacıyev, Şəmkir RPŞ-nin rəis müavini Yaşar Hüseynov, rayon prokurorunun köməkçisi İlham Salimov, dini icma sədrləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

* * *

Analoji seminar-müşavirə avqustun 24-də Tovuzda baş tutub. Seminar-müşavirədə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Tovuz RİH başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər üzrə şöbənin müdiri Təranə Vəliyeva, DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin müdiri Rasim Tağıyev, şöbənin əməkdaşları, eləcə də dini icma sədrləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Seminar-müşavirələrdə hər iki rayondakı dini durum barədə məlumat verilib, dini icma sədrlərinə rayonda dini durumun sabitliyinin qorunması sahəsində daha




səmərəli və ardıcıl fəaliyyət göstərmələri tövsiyə olunub. DQİDK sədrinin birinci müavini Səyyad Salahlı öz çıxışlarında Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uzaqgörən siyasət nəticəsində mütərəqqi dini dəyərlərin cəmiyyətdə daha da möhkəmləndirilməsi, insanların dini etiqad azadlığının yüksək səviyyədə təminatı istiqamətində bütün zəruri addımların atıldığını qeyd edib.

# "BP AZƏRBAYCAN"DA SEMİNAR-MÜŞAVİRƏLƏR KEÇİRİLİB



*Avqustun 3-də baş tutan tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov, Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev, "BP Azərbaycan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli və şirkətin əməkdaşları iştirak ediblər.*

* * *

Avqustun 10-da keçirilən tədbir DQİDK-nın sədr müavini Səyavuş Heydərov və "BP Azərbaycan" şirkətinin Xarici əlaqələr şöbəsinin müdiri Rəşad Bayramov və Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyevin iştirakı ilə baş tutub.

* * *

DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova, "BP Azərbaycan" şirkətinin vitse-prezidentləri Bəxtiyar Aslanbəyli, Leyla Novruzova, şirkətin Xarici əlaqələr şöbəsinin müdiri Rəşad Bayramov və əməkdaşların iştirak etdiyi daha bir analoji tədbir isə avqustun 17-də keçirilib.

Tədbirlərdə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş, dini ekstremizmin və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub. Çıxışlarda milli təhlükəsizliyimizin qorunması ilə bağlı respublikamızda son illər qəbul edilən qanun və qərarların əhə-



miyyətindən, həmçinin ölkəmizdə həyata keçirilən dini radikalizmlə mübarizə tədbirlərindən danışılıb, silsilə şəklində keçirilən bu seminar-müşavirələrin maarifləndirmə sahəsindəki əhəmiyyəti vurğulanıb.

Seminar-müşavirələr iştirakçıları maraqlandıran sualların cavablandırılması və müzakirələrlə yekunlaşıb.

# HƏRBİ HİSSƏLƏRDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRLƏRİ TƏŞKİL EDİLİB

Avqustun 11-də Daxili Qoşunların Bərdə rayonunda və Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissələrində "Radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda tədbirlər keçirilib.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov, Bərdə rayonundakı hərbi hissə komandirinin Tərbiyəvi işlər üzrə müavini polkovnik-leytenant Əli Qasımov, Gəncə şəhərindəki hərbi hissə komandirinin Tərbiyəvi işlər üzrə müavini mayor Surxay Gülməmmədovun iştirak etdiyi tədbirlərdə radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərinin işıqlandırıldığı "Fitnə" sənədli filmi nümayiş olunub. Bildirilib ki, sözügedən sənədli filmin hərbi hissələrdə nümayiş etdirilməsi təqdirəlayiq haldır.



Məruzəçilər hərbçilərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində milli-mənəvi dəyərlərin təbliğinin rolu barədə fikirlərini dinləyicilərlə bölüşüb, dövlət-din münasibətlərinin milli təhlükəsizlik və milli maraqlar baxımından düzgün istiqamətləndirilməsi məqsədilə mövcud qanunvericilik bazasının təkmilləşdirilməsindən, hüquqi aktlara edilmiş zəruri əlavə və dəyişikliklərdən danışıblar.

# Cocuq Mərcanlı məscidində vəhdət namazı qılınıb

Avqustun 5-də dövlət qeydiyyatından keçərək Göyçay rayonunda fəaliyyət göstərən bir qrup dini icma sədri və din xadimi Cocuq Mərcanlı məscidini ziyarət edərək orada Vəhdət namazı qılıblar. Məscidin ziyarəti Göyçay Rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ucar bölgəsi üzrə şöbəsinin birgə təşəbbüsü ilə həyata keçirilib.



Prezident İlham Əliyevin göstərişinə əsasən inşa olunmuş, Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar Vəhdət namazı qılaraq ölkəmizdəki firavanlığın və sülh şəraitinin əbədi olması, eləcə də Qarabağdakı bütün məscidlərimizdə azan səsinin ucalması üçün dualar ediblər.



# «İslam Həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə»



Avqustun 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Yardımlı Rayon İcra Hakimiyyəti (RİH) ilə birgə "İslam Həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda konfrans keçirib.

Tədbirdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Yardımlı RİH başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Əfsanə Məmmədova, DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Dövlət Komitəsinin digər əməkdaşları, RİH başçısının qəsəbə və kəndlər üzə nümayəndələri, bələdiyyə sədrləri, eləcə də gənclər iştirak ediblər.

* * *

Analoji tədbir avqustun 15-də DQİDK və Qax RİH-in birgə təşkilatçılığı ilə baş tutub. Konfransda DQİDK sədrinin müavini Gündüz İsmayılov, RİH Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini İlqar Abbasov, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Rayon İcra Hakimiyyəti və DQİDK-nın yerli strukturunun nümayəndələri, rayonun təhsil şöbəsinin əməkdaşları, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Tədbirlərdə çıxış edən natiqlər Azərbaycanın dövlət-din münasibətləri modeli, İslam həmrəyliyi, ölkəmizin tolerantlıq ənənələri, onların qorunması və daha da inkişaf etdirilməsi, cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması, dini mühitdə radikallığa meyillərin səbəbinin öyrənilməsi, bu meyillərin qarşısının alınması üçün səmərəli metodların aşkara çıxarılması və bu sahədəki kompleks tədbirlərin effektivliyi barədə danışıblar. Qeyd olunub ki, zərərli dini cərəyanlara qarşı mübarizədə dini maarifləndirmənin böyük əhəmiyyəti var, insanları yalnız inzibati tədbirlər yolu ilə zərərli dini cərəyanların təsirindən qorumaq qeyri-mümkündür. Buna görə də hər kəs minimum dini biliklə-



rə sahib olmaqla yanaşı, zərərli dini cərəyanlar və qeyri-ənənəvi təriqətlər barədə məlumatlı olmalıdır. Ən düzgün maarifləndirmə metodologiyası səhvlə yanaşı, doğrunu da göstərməkdir.

Konfranslar iştirakçıları maraqlandıran sualların cavablandırılması və müzakirələrlə yekunlaşıb.

# "İslam həmrəyliyi: dini radikalizm və ekstremizmə qarşı mübarizə yolu" mövzusunda konfrans keçirilib



Avqustun 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Bakıda "İslam həmrəyliyi: dini radikalizm və ekstremizmə qarşı mübarizə yolu" mövzusunda konfrans təşkil edib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM), Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) nümayəndələri, dinşünaslar, eləcə də dini sahədə fəaliyyət göstərən ekspertlər iştirak ediblər.

Konfransda dini mühitdə radikallığa meyillərin səbəbinin öyrənilməsi, bu meyillərin qarşısının alınmasında İslam həmrəyliyinin rolu, eyni zamanda müvafiq sahədə kompleks tədbirlərin səmərəliliyinin daha da artırılması barədə müzakirələr aparılıb. Bildirilib ki, İslam həmrəyliyi irqindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün insanları birliyə səsləyir. Bu baxımdan Azərbaycan İslam dünyasında özünün barışdırıcı, sülhpərvər mövqeyi ilə nümunə təşkil edir.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov öz məruzəsində Prezident İlham Əliyevin 2017-ci ili ölkəmizdə "İslam Həmrəyliyi İli" elan etməklə İslam dünyasına qlobal problemə çevrilmiş dini radikalizm və ekstremizm təhlükəsindən qurtulmağın mümkünlüyü mesajını verdiyini diqqətə çatdırıb.

Daha sonra DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov "İslam həmrəyliyi: dini radikalizm və ekstremizmə qarşı mübarizə yolu" mövzusunda məruzə ilə, o cümlədən QMİ sədrinin müavini Fuad Nurullayev, Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev, BBMM-in şöbə müdiri Rəşad İlyasov çıxış ediblər.

Konfrans işini iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə davam etdirib.



# Qafqaz Müsəlmanları İdarəsi Qurban bayramı münasibətilə fətva verib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Qurban bayramı münasibətilə fətva verib. Fətvada deyilir: "Qarşıdan İslam aləmi və xalqımızın müqəddəs günlərindən biri, uca insani keyfiyyətlərin təntənəsini simvolizə edən Qurban bayramı gəlir. Bütün səmavi dinlərin əziz tutduğu Həzrət İbrahim əleyhissalamın adı ilə bağlı bu müqəddəs gün ümumbəşəri birlik və tolerantlıq mesajını çatdırır. Bu bayramın ən mühüm ayini Həcc ziyarətidir. Dünyanın hər bir yanından Həcc ziyarətinə yola düşən müsəlmanlar Kəbə evi ətrafında təvaf edirlər. Bu, müsəlman həmrəyliyinin, ilahi eşqlə çiyin-çiyinə birgə hərəkətin nümayişidir. Səfa və Mərva dağları arasında səy etmək daim inkişaf etmək, dayanmadan çalışmaq anlamına gəlir. Həzrət Adəm əleyhissalamın hekayəsi başlayan Ərəfə çölündə toplaşaraq müsəlmanlar insani kimliyin mahiyyətinə varır, keçmişdəki səhvləri təhlil edib gələcəyə əzmlə irəliləmək üçün mənəvi güc toplayırlar. Nəhayət, Mina çölündə hər kəs öz İsmayılını qurban gətirir – şəxsiyyətin inkişafına mane olan bütün bağları kəsir. Həccin hər ayini yardımlaşaraq, düşünərək, çalışaraq dayanmadan irəliyə yönəlməyi tərənnüm edir. Qurban bayramı bu ilahi dəyərlərin unudulmamasına xidmət edir".

Fətvada qeyd olunur ki, Azərbaycan həmişə dinlərarası tolerantlıq və müsəlman həmrəyliyinin məskəni olub: "Prezident İlham Əliyev həzrətlərinin bu istiqamətdə apardığı siyasət, gündəmə gətirdiyi mövzular və dəstəklədiyi beynəlxalq tədbirlər bunun bariz nümunəsidir".

Bildirilir ki, qurbanlıq ayini yalnız hacılara vacib olsa da, Həcc ziyarətində olmayanlar da Allah-Təalaya öz qurbanlarını təqdim edə bilərlər. Adətən qurbanlıq üçün qoyuna üstünlük verilir. Lakin keçi, inək və dəvəni də qurbanlıq üçün seçmək olar. Həmin ətin bölgüsündə hər kəs azaddır, hərçənd imkansızlara yardım etmək dinimizin ruhuna daha yaxındır: "Əziz Peyğəmbərimiz (s) də belə davranmağı bizlərə vəsiyyət edib. Qurban kəsən şəxsin həmin ətdən özünə pay götürməsinin heç bir eybi yoxdur. Tövsiyə edirik ki, bu müqəddəs ayin təmizlik və yüksək sanitariya şəraitində, münasib yerlərdə icra olunsun".

Fətvada qeyd edilir ki, bayram qəməri təqvimlə zil-hiccə ayının 10-dur. Azərbaycan üfüqünə uyğun olaraq həmin gün miladi təqvimlə sentyabrın 1-nə təsadüf edəcək.

Azərbaycanda iki gün - sentyabrın 1-i və 2-si qeyri-iş günü elan edilib.

"Hədislərdə qeyd olunduğu kimi, Qurban bayramının gecəsi və günü dualar qəbul olunar. Həmrəylik, yardımlaşma və mənəvi təmizlənmə rəmzi olan bu müqəddəs gündə vətənimiz və millətimiz üçün xüsusilə dua etməliyik. Vətən uğrunda canlarından keçən şəhidlərimizi yad etmək, köçkün düşmüş soydaşlarımızın tezliklə doğma yurdlarına qayıtmasını dua etmək bir müsəlman olaraq hər birimizin vəzifəsidir. Allah tezliklə Qarabağımızın işğaldan azad olmasını nəsib etsin!

Bu əziz bayram münasibətilə Qafqaz Müsəlmanları İdarəsi və onun rəhbərliyi Azərbaycan xalqını və bütün müsəlmanları təbrik edir, bu bayramın daşıdığı dəyərlərə həmişə sadiq qalmağı Uca Yaradandan diləyir. Allah-Təala bütün ibadətlərinizi qəbul etsin!", - deyə fətvada bildirilir.

# Qısa-qısa



**Avqustun 3-də** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Masallı bölgəsi üzrə şöbəsi və Masallı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə rayonda ideoloji işin səmərəliliyinin artırılması və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə apardığı siyasətin təbliği ilə əlaqədar mühazirəçilər qrupunun Masallı rayonunun Qızılağac kəndində ictimaiyyət nümayəndələri ilə görüşü keçirilib.

Tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşı Kamil Bağırov, Masallı RİH başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aybəniz Qafarova və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

**Avqustun 4-də** Kürdəmir RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir rayon Polis Şöbəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin Kürdəmir rayon İdarəsinin birgə təşkilatçılığı ilə Kürdəmir Mərkəzi Rayon Xəstəxanasında "İslam həmrəyliyi – bəşəriyyəti sülhə aparan yol" mövzusunda tədbir keçirilib.

Tədbirdə Kürdəmir RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev, rayon Polis Şöbəsinin əməkdaşı Vüsal Hüseynov, DTX-nın Kürdəmir rayon İdarəsinin əməkdaşı Seymur Müslümov, Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Məhəmməd Musayev və səhiyyə işçiləri iştirak ediblər.

***

**Avqustun 15-də** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şamaxı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda baş tutan seminar-treninqdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə, Şamaxı RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı İsmayıl Manafov, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

**Avqustun 16-da** DQİDK və Ağdaş RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda daha bir analoji seminar-treninq keçirilib. Tədbirdə DQİDK-nın



Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə, Ağdaş Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aynurə Novruzova, Ağdaş Rayon Gənclər və İdman İdarəsinin müdiri Azad Gözəlov, QMİ-nin bölgə qazısı Əli Məmmədov, Qarabağ Əlillər Cəmiyyətinin nümayəndəsi İsmayıl Xəlilov, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

**Avqustun 17-də** DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin və Masallı RİH-in birgə təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə apardığı siyasətin, həmçinin ideoloji və dini maarifləndirmə işinin təbliği ilə əlaqədar Masallı rayonu Xırmandalı kəndində tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşı Kamil Bağırov, Masallı RİH başçısının müavini-İctimai-siyasi və humanitar məsələlələr şöbəsinin müdiri Aybəniz Qafarova, Masallı Rayon Ağsaqqalar Şurasının sədri Ələşrəf Niftiyev və başqaları iştirak ediblər.

***

**Avqustun 18-də** DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "İslam həmrəyliyinin təbliğində kitabxa-



naların rolu" mövzusunda tədbir keçirilib.

DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin əməkdaşı Elnur Ağasiyev, Quba rayon Mərkəzi Kitabxana Sisteminin Abonent bölməsinin müdiri Zəminə İsgəndərova, rayonda fəaliyyət göstərən kitabxanaların əməkdaşları və bir qrup fəal oxucunun iştirak etdiyi tədbirdə kitabxana əməkdaşlarına DQİDK-nın razılığı ilə çap olunmuş dini ədəbiyyat da hədiyyə edilib.

***

**Avqustun 25-də** DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı RİH-in birgə təşkilatçılığı ilə



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə apardığı siyasətin, həmçinin ideoloji və dini maarifləndirmə işinin təbliği ilə əlaqədar Masallı rayonunun Həsənli kəndində ictimaiyyət nümayəndələri ilə görüş keçirilib.

Tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşı Kamil Bağırov, Masallı RİH başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aybəniz Qafarova, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatının rayon şöbəsinin sədri Məmmədağa Şiriyev, Rəhim Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva və digər çıxışçılar dövlətin din sahəsində apardığı siyasətdən söhbət açaraq milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında görülən işlərdən danışıblar.

***

**Avqustun 25-də** DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə gənclər arasında müxtəlif qeyri-ənənəvi dini təriqətlərin, ekstremist və ayrı-seçkilik çağırışlarının qarşısının alınması məqsədilə seminar keçirilib.

Rayon Gənclər Mərkəzində keçirilən tədbirdə DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşı Sədi Hüseynov, Zərdab rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Ələkbər Kərimov və aktiv fəaliyyətləri ilə seçilən gənclər iştirak ediblər.

***

**Avqustun 29-da** Saatlı rayon Varxankənd "Cümə" məscidi dini icmasında DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "İslam həmrəyliyi sülhə çağırışdır" mövzusunda tədbir keçirilib.

Tədbirdə İmişli bölgəsi üzrə şöbənin müdiri Cavanşir Bəhrəmov, Saatlı rayon Varxankənd məscidi dini icmasının sədri Yadigar Aslanov və kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

***

Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) arasında imzalanmış Tədbirlər Planı çərçivəsində məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi və dini etiqad azadlığının təmin olunması istiqamətində keçirilən seminar-treninqlər davam edir.

2 və 9 saylı cəzaçəkmə müəssisələrində keçirilən maarifləndirici tədbirlərdə Penitensiar Xidmətin Tərbiyə işinin təşkili idarəsinin məsul əməkdaşı Mübariz Vəliyev, DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov və Qafqaz Müsəlmanları İdarəsinin Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndəsi, Məşədi Dadaş məscidinin axundu Hacı Şahin Həsənli iştirak ediblər.

Qeyd edək ki, keçirilən tədbirlərdə ölkə rəhbəri cənab İlham Əliyevin apardığı uğurlu və məqsədyönlü siyasətdən danışılıb. Vurğulanıb ki, bu siyasətə dəstək



olmaq yolunda hər bir Azərbaycan vətəndaşının, xüsusən də gənclərin üzərinə dinimizi, milli-mənəvi dəyərlərimizi düzgün təbliğ etmək kimi məsuliyyətli bir vəzifə düşür.

2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinin əhəmiyyətinə də toxunan məruzəçilər bildiriblər ki, bu gün dünyada İslamı terrorizmin, cəhalətin ünvanı kimi təqdim edən və buna qismən də nail olan məlum şəbəkələr var. Onların yaratdığı mənfi imic, əslində, İslamın daxilindəki parçalanmadan, maarifçilikdən uzaq düşməsindən qaynaqlanır. Çoxkonfessiyalı ölkə kimi Azərbaycan dünyada dinlər və mədəniyyətlər arasında əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsinə layiqli töhfələr verə biləcəkdir.

Eyni zamanda, tədbirlərdə dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərin təbliği, eləcə də ənənəvi İslamın dirçəldilməsi məqsədilə hərtərəfli maarifçilik işini özündə ehtiva edən kompleks tədbirlərin həyata keçirilməsinin zəruriliyindən danışılıb. Qeyd olunub ki, bu səbəbdən Dövlət Komitəsinin fəaliyyətinin əsas istiqamətlərindən birini də dini radikalizm və ekstremizmlə mübarizə, milli-mənəvi dəyərlərin təbliği çərçivəsində maarifləndirmə işi təşkil edir. Çünki dini radikalizm və ekstremizmin qarşısının alınması sahəsində maarifləndirmənin alternativi yoxdur.



Tədbirlərdə müxtəlif mövzularda müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# PREZİDENTİN SƏRƏNCAMI UĞURLA İCRA OLUNUR

*Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2017-ci ilin avqust ayı ərzində də müxtəlif bölgələrdə tədbirlər keçirilib. Cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*




**1 avqust** – İmişli rayonu Şahverdili kənd "Əhli-beyt" məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və müasirlik" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Goranboy rayon Xanqərvənd kənd məscidi dini icmasının "Dini ekstremizmin qarşısının alınmasında İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda; Sabunçu rayonu Sabunçu qəsəbə məscidi dini icmasının "İslam həmrəyliyi dünyanı sülhə aparan yol" layihəsi çərçivəsində; Xətai rayonu "Əhmədli qəsəbə məscidi" dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində;

**2 avqust** – Ağdam rayonu Heydər Əliyev Mərkəzində Ağdam rayonu Xındırıstan kənd məscidi dini icmasının "Heydər Əliyev irsi və İslam həmrəyliyi" layihəsi çərçivəsində;

**3 avqust** – Salyan rayonu Çuxanlı kəndi "Hacı Cəbrayıl" məscidi dini icmasının "İslam dini həmrəy və tolerant dindir" layihəsi çərçivəsində; İmişli rayonu Cəfərli kənd məscidi dini icmasının "İslamda sülh və həmrəylik çağırışları" layihəsi çərçivəsində "İslam həmrəyliyi və vətənpərvərlik" mövzusunda;




**4 avqust** – Sabirabad rayon Həşimxanlı kənd məscidi dini icmasının "Multikultural cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində "Multikulturalizm dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" mövzusunda; Lerik rayonu Ləmərud kənd məscidi dini icmasının "İslam sülhə və həmrəyliyə aparan yoldur" layihəsi çərçivəsində;

**5 avqust** – Masallı rayonu Ərkivan qəsəbə "Həzrət Əli" məscidi dini icmasının "Radikalizm və ekstremizmə qarşı mübarizədə İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində "İslamda multikultural dəyərlər və sülh çağırışları" mövzusunda;

**7 avqust** – Astara rayonu Kijəbə qəsəbə məscidi dini icmasının "İslam həmrəyliyi məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində; Ağdam rayonu Xındırıstan kənd məscidi dini icmasının "Heydər Əliyev irsi və İslam həmrəyliyi" layihəsi çərçivəsində;

**8 avqust** – Samux rayon Samux şəhər müsəlmanları dini icmasının "İslam həmrəyliyi İslamda birgəyaşayış ənənələrinə xidmət edir" layihəsi çərçivəsində "Dini ekstremizmin qarşısının alınmasında İslam həmrəyliyinin rolu" mövzusunda; Tovuz rayonu məscidi dini icmasının "İslam həmrəyliyində məhzəblərarası dialoqun önəmi" layihəsi çərçivəsində "Dini ekstremizm və ona qarşı mübarizə metodları" mövzusunda; Ağdaş rayon Qəribli kənd məscidi dini icmasının "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" layihəsi çərçivəsində; İsmayıllı rayonu Topçu kənd məscidi dini icmasının "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" layihəsi çərçivəsində; Cəlilabad rayonu Zərbiəlli kənd "İmam Hüseyn" məscidi dini icmasının "İslam həmrəyliyi radikalizmə qarşı mübarizədə vasitə kimi" layihəsi çərçivəsində "İslamda multikultural dəyərlər və sülh çağırışları" mövzusunda; Lənkəran rayonu Balıqçılar qəsəbə "Xanım Zəhra" məscidi dini icmasının "İslam həmrəyliyi sülh və inkişafa təminatdır" layihəsi çərçivəsində; Neftçala rayonu Aşağı Qaramanlı kəndi "Abbas" məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində; Ağcabədi şəhər "Cümə" məscidi dini icmasının "Cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində "Azərbaycanda müasir birgəyaşayış prinsipləri" mövzusunda; Yevlax rayon Yenicə kənd məscidi dini icmasının "Azərbaycan İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilir" layihəsi çərçivəsində "Müsəlman həmrəyliyinin və multikulturalizmin mükəmməl ifadəsi" mövzusunda;

**9 avqust** – Zaqatala rayonu Yengiyan kənd məscidi dini icmasının "İslam dininin mədəniyyətimizdəki yeri və rolu" layihəsi çərçivəsində "Milli-dini abidələrimiz" mövzusunda; Zərdab şəhər "Cümə" məscidi dini icma-




sının "İslam Həmrəyliyi sülhə çağırışdır" layihəsi çərçivəsində "İslam həmrəyliyinin qarşısında duran maneələr" mövzusunda; Ağdaş şəhər Hacı İsmayıl məscidi dini icmasının "İslam həmrəyliyinin və islami dəyərlərin təbliği" layihəsi çərçivəsində; Qobustan rayonu Ərəbşalbaş kəndi "Hacı Gülməli" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində "Məzhəblərarası vəhdət" mövzusunda;

**10 avqust** – Xaçmaz rayonu Yalama kənd məscidi dini icmasının "Birliyimiz həmrəyliyimizdədir" layihəsi çərçivəsində; Şamaxı rayonu Mədrəsə qəsəbə məscidi dini icması tərəfindən "İslam sülh və həmrəylik dinidir" layihəsi çərçivəsində; Ucar şəhər "Cami" məscidi dini icmasının "Bəşəriyyətin təhdidlərdən çıxış yolu - Həmrəylik" layihəsi çərçivəsində; Gədəbəy şəhər Cümə məscidi dini icmasının "İslamın mənəvi, əxlaqi dəyərlərinin gənclərə aşılanması" layihəsi çərçivəsində "Dini radikalizmin və ekstremizmin zərərləri" mövzusunda; Kortala kənd dini icmasının "İslam dinində vətən sevgisi və şəhidlik" layihəsi çərçivəsində "Dinimizdə vətən sevgisinin önəmi" mövzusunda; Osakücə kənd tam orta məktəbində Lənkəran rayonu Osakücə kənd məscidi dini icmasının "İslam həmrəyliyi müasir dövrün çağırışıdır" layihəsi çərçivəsində;



**11 avqust** – Masallı rayonu Lürən kənd məscidi dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində "Azərbaycanda multikultural dəyərlər və tolerantlıq ənənələri" mövzusunda; Abşeron rayonu Güzdək qəsəbə "Rəsulullah" məscidi dini icmasının "İslam həmrəyliyi - dini radikalizmdən xilas yolu" layihəsi çərçivəsində "İslamın bəşəri dəyərlərə münasibəti" mövzusunda; Quba şəhəri "Ərdəbil" məscidi dini icmasının "Ənənəvi İslam və həmrəylik" layihəsi çərçivəsində; Salyan şəhəri mərkə-




zi "Hacı Tağı" məscidi dini icmasının "İslam dinində tolerant və multikultural dəyərlər" layihəsi çərçivəsində; Ağstafa rayonu Poylu kəndində Ağstafa şəhəri İmam Əli adına "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" layihəsi çərçivəsində "Dünyadakı gərginliyin aradan qaldırılmasında İslam həmrəyliyinin rolu" mövzusunda; Ağdam rayonu Xındırıstan kənd məscidi dini icmasının "Heydər Əliyev irsi və İslam həmrəyliyi" layihəsi çərçivəsində;

**12 avqust** – Çarhan kənd məscidində Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyinin əhəmiyyəti" layihəsi çərçivəsində;

**14 avqust** – Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "Məzhəblərarası vəhdət" mövzusunda;

**15 avqust** – Bəlləbur kəndində Lənkəran rayonu Bəlləbur kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülh və birliyə töhfə kimi" layihəsi çərçivəsində; Aşağı Nemətabad kənd orta məktəbində Ağdaş rayon Aşağı Nemətabad məscidi dini icmasının "İslam həmrəyliyi və İslam elm tarixində Azərbaycan məktəbi" layihəsi çərçivəsində "İslam həmrəyliyi və müasirlik" mövzusunda; Masallı rayonu Eminli kənd məscidi dini icmasını "İslam həmrəyliyi Azərbaycan kontekstində" layihəsi çərçivəsində; Zərdab rayonu Pərvanlı kənd Məmməd Rahim adına tam orta məktəbində Zərdab şəhər "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyi sülhə çağırışdır" layihəsi çərçivəsində "Etnokonfliktlərin həlli yolu kimi - İslamda həmrəylik" mövzusunda; Ağcabədi



şəhər "Cümə" məscidi dini icmasının "Cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində;

**16 avqust** – Binəqədi rayonu Binəqədi qəsəbəsi "Came" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi sülh və bəşəri dəyərlərə sadiqlik simvoludur" layihəsi çərçivəsində; Masallı rayonu Sığıncaq kənd məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsində dövlət siyasəti" mövzusunda; Sabirabad rayon Həşimxanlı kənd məscidi dini icmasının "Multikultural cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində "Multikulturalizm və tolerantlıq Azərbaycan xalqının həyat tərzidir" mövzusunda;

**17 avqust** – Neftçala şəhəri "Sahib-əzzaman" məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində;

davamı səh. 9

əvvəli səh. 8

Balakən rayonunun Şambul kəndində Cederovtala kənd dini icmasının "İslam sülh və həmrəylik dinidir" layihəsi çərçivəsində "Dini ekstremizm və onun təzahür formaları" mövzusunda; Göyçay rayonu Yeniarx kənd məscidi dini icmasının "Müsəlman intibahının bərqərarı - İslam



Həmrəyliyi" layihəsi çərçivəsində; Göyçay rayonu Yalman kənd məscidi dini icmasının "İslam Həmrəyliyi və sosial ədalət" layihəsi çərçivəsində; Göyçay rayonu Çərəcə kənd məscidi dini icmasının "İslam Həmrəyliyi – Sülhə aparan yol" layihəsi çərçivəsində;

**18 avqust** – Masallı rayonu Ağakişibəyli kəndi "Şeyx Həsən" məscidi dini icmasının "İslamda multikultural dəyərlər və tolerantlıq ənənələri" layihəsi çərçivəsində "Radikalizm və ekstremizmin fəsadlarının aradan qaldırılmasında multikultural dəyərlərin rolu" mövzusunda; Salyan rayonu "Xurşud" kənd məscidi dini icmasının "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində; Qəbələ rayonu Hacıalılı kənd məscidi dini icmasının "Dini və milli müxtəlifliyin vəhdətində İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində; Balakən rayonunun Beçağar kəndində Kortala kənd dini icmasının "İslam dinində Vətən sevgisi və şəhidlik" layihəsi çərçivəsində "İslamda şəhidlik anlayışı" mövzusunda; Lənkəran rayonu Qurumba kənd məscidi dini icmasının "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyinin rolu" mövzusunda;

**19 avqust** – Masallı rayonu Köçəkli kənd məscidi dini icmasının "Dinimiz və mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlər gənclərin gözü ilə" mövzusunda;

**21 avqust** – Qaradağ rayonu Lökbatan qəsəbə məscidi dini icmasının "İslamda həmrəylik və sülh çağırışları" layihəsi çərçivəsində; Balakən rayonu Cederovtala kənd məscidi dini icmasının "İslam sülh və həmrəylik dinidir" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və müasirlik" mövzusunda; Masallı rayonu Kubin kənd məscidi dini icmasının "Radikalizm və ekstremizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərin əhəmiyyəti" layihəsi çərçivəsində "İslam zərərli vərdişlərə "yox" deyir" mövzusunda; Ağdaş şəhər Hacı İsmayıl məscidi dini icmasının "İslam həmrəyliyinin və islami dəyərlərin təbliği" layihəsi çərçivəsində "Dini



radikalizmin və ekstremizmin yaranma, yayılma metodlarına qarşı mübarizə" mövzusunda;

**22 avqust** – Ucar şəhər "Cami" məscidi dini icmasının "Bəşəriyyətin təhdidlərdən çıxış yolu - Həmrəylik" layihəsi çərçivəsində "İslam təfriqə və xurafata yox deyir" mövzusunda; Ağsu şəhər "Nuran Xatun" məscidi dini icmasının "İslam həmrəyliyi və millli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində "İslamda həmrəylik" mövzusunda; Lənkəran rayonu Balıqçılar qəsəbə "Xanım Zəhra" məscidi dini icmasının "İslam həmrəyliyi sülh və inkişafa təminatdır" layihəsi çərçivəsində; Xəzər rayonu Türkan qəsəbəsi "Türkan bağları" məscidi dini icmasının "İslam həmrəyliyi sülh və birlik nümunəsidir" layihəsi çərçivəsində; İsmayıllı rayonu Topçu kənd məscidi dini icmasının "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Zaqatala rayonu Yengiyan kənd məscidi dini icmasının "İslam dininin mədəniyyətimizdəki yeri və rolu" layihəsi çərçivəsində "Azərbaycan mədəniyyətinin İslam mədəniyyətinə töhfələri" mövzusunda; Yevlax rayon Yenicə kənd məscidi dini icmasının "Azərbaycan İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilir" layihəsi çərçivəsində "Siyasi-ideoloji baxımdan İslam fundamentalizmi" mövzusunda; Ləmərüd kəndində Lerik rayon Ləmərüd kənd məscidi dini icmasının "İslam sülhə və həmrəyliyə aparan yoldur" layihəsi çərçivəsində; Ağcabədi şəhər "Cümə" məscidi dini icmasının "Cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində;

**23 avqust** – Masallı rayonu Köhnə Alvadı kənd məscidi dini icmasının "İslam həmrəyliyi radikalizm və ekstremizmə qarşıdır" layihəsi çərçivəsində "Radikalizm və ekstremizmə qarşı mübarizədə dindarların rolu" mövzusunda; Astara rayonu Kijəbə qəsəbə məscidi dini icmasının "İslam həmrəyliyi məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində; Qobustan rayonu Ərəbşalbaş kəndi "Hacı Gülmalı" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində "İslam həmrəyliyi gənclərin gözü ilə" mövzusunda;

**24 avqust** – Sabirabad rayon Bulaqlı kənd məscidi dini icmasının "İslam həmrəyliyi - dini vəhdətə çağırış" layihəsi çərçivəsində "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" mövzusunda; Şamaxı rayonu Mədrəsə qəsəbə məscidi dini icmasının "İslam sülh və həmrəylik dinidir" layihəsi çərçivəsində "İslamda birlik və bərabərlik çağırışları" mövzusunda; Masallı rayonu Lürən kənd məscidi dini icmasının



"İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində "İslam dini terrora qarşı" mövzusunda; Göyçay rayonu Yalman kənd məscidi dini icmasının "İslam həmrəyliyi və sosial ədalət" layihəsi çərçivəsində; Neftçala şəhəri "Sahib Əzzaman" məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində; Şabran rayonu Dağbilici kənd məscidi dini icmasının "Milli-mənəvi və dini dəyərlərin qorunmasında birgəyaşayışın və həmrəyliyin rolu" layihəsi çərçivəsində; Cəlilabad rayonu Zərbiəlli kəndi "İmam Hüseyn" məscidi dini icmasının "İslam həmrəyliyi radikalizmə qarşı mübarizədə vasitə kimi" layihəsi çərçivəsində "İslam həmrəyliyinin Azərbaycan zəfəri" mövzusunda; Lənkəran rayonu Osakücə kənd məscidi dini icmasının "İslam həmrəyliyi müasir dövrün çağırışıdır" layihəsi çərçivəsində; Ağcabədi rayon "Seyid Mürsəl Ağa" məscidi dini icmasının "İslam həmrəyliyi məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində;

**25 avqust** – Sumqayıt şəhəri "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyi – düşüncə tariximizin dünəni və bu günü" layihəsi çərçivəsində "Azərbaycanda dövlət – din münasibətlərinin keçmişi, bu günü və gələcəyi" mövzusunda; Ağdaş rayon Qəribli kənd məscidi dini icmasının "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" layihəsi çərçivəsində "Gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğatının artırılmasında dini icmaların rolu" mövzusunda; Abşeron rayonu Güzdək qəsəbə "Rəsulullah" məscidi dini icmasının "İslam həmrəyliyi - dini radikalizmdən xilas yolu" layihəsi çərçivəsində "Azərbaycanda dövlət-din münasibətlərinin keçmişi, bu günü və gələcəyi" mövzusunda; Göyçay rayonu Çərəcə kənd məscidi dini icmasının "İslam Həmrəyliyi – sülhə aparan yol" layihəsi çərçivəsində; Göyçay rayonu Yeniarx kənd məscidi dini icmasının "Müsəlman intibahının bərqərarı - İslam Həmrəyliyi" layihəsi çərçivəsində; Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "İslam həmrəyliyi gənclərin gözü ilə" mövzusunda; Zaqatala rayonu Üçüncü Tala kənd məscidi dini icmasının "Azərbaycanda İslam ənənələri" layihəsi çərçivəsində



"İslam dəyərlərinin xalqımızın milli-mənəvi dəyərlərindəki yeri" mövzusunda; Sabirabad rayonu Qaratəpə kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülh və birliyə töhfə kimi" layihəsi çərçivəsində "İslam həmrəyliyi – bəşəriyyəti sülhə aparan yol" mövzusunda; Salyan rayonu "Xurşud" kənd məscidi dini icmasının "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində; Balakən rayonu Kortala kənd dini icmasının "İslam dinində vətən sevgisi və şəhidlik" layihəsi çərçivəsində "Xalqımızın milli-mənəvi dəyərləri və onların yad təsirlərdən qorunması" mövzusunda; Quba şəhəri "Ərdəbil" məscidi dini icmasının "Ənənəvi İslam və həmrəylik" layihəsi çərçivəsində;

**26 avqust** – Çarhan kənd məscidində Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyinin əhəmiyyəti" layihəsi çərçivəsində**;**

**28 avqust** – Sabunçu rayonu Pirşağı qəsəbəsi "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" layihəsi çərçivəsində; Balakən rayonunun Cederovtala kəndində Cederovtala kənd dini icmasının "İslam sülh və həmrəylik dinidir" layihəsi çərçivəsində "Gənclik və milli-mənəvi dəyərlərimiz" mövzusunda; İmişli rayon Cəfərli kənd "İmam Hüseyn" məscidi dini icmasının "İslamda həmrəylik və sülh çağırışları" layihəsi çərçivəsində "İslam həmrəyliyinin təbliği, gənclərin dini radikalizm və zərərli vərdişlərdən qorunması" mövzusunda;

**29 avqust** – Qobustan rayonu Təklə Mirzəbaba kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülh və birlik nümunəsidir" layihəsi çərçivəsində "İslamda həmrəylik" mövzusunda; Ağcabədi rayonu Muğanlı kəndi "Seyid İsmayıl Ağa" məscidi dini icmasının "İslam həmrəyliyi dövrün tələbidir" layihəsi çərçivəsində; Astara şəhər "Qum" məscidi dini icmasının "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində; Yevlax rayon Yenicə kənd məscidi dini icmasının "İslam həmrəyliyi dini ekstremizm və radikalizmə "YOX" deyir" layihəsi



çərçivəsində; Zərdab şəhər "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyi sülhə çağırışdır" layihəsi çərçivəsində "İslam təfriqə və xurafata yox deyir" mövzusunda; Qusar şəhəri "Mustafa Kazdal" məscidi dini icmasının "Azərbaycanda İslam həmrəyliyi: milli-mənəvi dəyər kimi" layihəsi çərçivəsində; Balakən rayonunun Kortala kəndində Kortala kənd dini icmasının "İslam dinində vətən sevgisi və şəhidlik" layihəsi çərçivəsində "İslam dəyərlərini düzgün anlamaq üçün sağlam dini biliklərə malik olmağın əhəmiyyəti" mövzusunda baş tutub.

# Qarabağ bölgəsində dini durum: qısa tarix və müasir vəziyyət (I yazı)

*Bu gün Azərbaycan dövlətinin din sahəsindəki siyasətinin mahiyyətini qısaca belə ifadə etmək olar: Azərbaycan dünyəvi dövlətdir, din dövlətdən ayrıdır, dini dəyərlər milli-mənəvi dəyərlərimizi daha da zənginləşdirir və onun ayrılmaz hissəsidir, dini maarifləndirmə müasir Azərbaycan cəmiyyəti üçün vacibdir, tolerantlıq və multikulturalizm Azərbaycanda həyat tərzidir, ölkəmizdə heç bir dinə və dindara digərlərindən üstün imtiyazlar verilmir, müxtəlif dini konfessiyaların nümayəndələri bizim ölkəmizdə sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar, dinin siyasətə qarışması qanunla yolverilməzdir, din dövlətdən ayrı olsa da, bu, dinsizlik demək deyil və hər bir dindarın vətəndaş olaraq dövlət qarşısında hüquqları, vəzifələri və qanunla müəyyən edilmiş ictimai məsuliyyəti vardır.*

Azərbaycanın digər bölgələri kimi, Qarabağ bölgəsi də dini cəhətdən qədim tarixə malikdir. İslam dininin qəbulunadək ölkəmizdə mövcud olan dinlərin hamısı az və ya çox dərəcədə Qarabağ ərazisində də yayılmışdır. Buradakı ilk dini təsəvvürlər animizm, fetişizm və totemizmlə bağlı olmuşdur. Bu inanclar ruhun varlığına inam, daşa inam (Kəlbəcər "qoç daşları"), suya inam (Kəlbəcərdə Həmzə bulağı, Ağdamda şah bulağı, Ağdərədə yel bulağı) şəklində özünü göstərmişdir.

Qarabağda geniş yayılmış inanclardan biri oda sitayiş olmuşdur. Hətta küp qəbirdə dəfn adəti zamanı küpün qabaq hissəsində tonqal yandırırmışlar. Ancaq aparılan araşdırmalar bölgədə başqa sitayiş formalarının da olduğunu deməyə əsas verir. Məsələn, ovçular ovdan əvvəl müəyyən ayinlər icra edirmişlər. Belə bir hadisəni Şuşa realnı məktəbində alman dilindən dərs deyən Emil Resler XIX əsrin sonunda Killik dağ ətrafında qazıntı-tədqiqat işləri apararkən müşahidə etmişdir. Qarabağ ərazisindən heyvana sitayişlə əlaqədar üstündə heyvan təsvirləri olan çoxsaylı qablar aşkarlanmışdır. Bu da onu göstərir ki, müəyyən tarixi dövr ərzində burada heyvanlarla bağlı inanclar mövcud olmuşdur.

E.ə. III-I minilliklərdə Qarabağda insan bütlərinə sitayiş geniş yayılmışdır. Hətta belə bütlərin indiki Füzuli rayonunun Araz Yağlıvənd kəndi yaxınlığındakı bir təpənin altında basdırılması haqqında məlumatlar var. Qarabağ sakinləri müəyyən müddət səma cisimlərinə də etiqad bəsləmişlər.

Tarixi qaynaqlara görə, Qarabağda Xristianlığa qədər yayılan dinlərdən biri də Zərdüştlük olmuşdur. Sasanilərin qəddarlığına bələd olan Alban hökmdarı Urnayr, I Vaçe, III Vaçaqan, Cavanşir və digərləri, o cümlədən yerli əhali Zərdüştlüklə müqayisədə Xristianlığa üstünlük vermiş və bu dini qəbul etmişdilər. IV əsrdən başlayaraq Albaniyada əsas dinə çevrilən Xristianlıq 313-cü ildə Urnayr tərəfindən dövlət dini elan olunmuşdur. Azərbaycan torpaqlarında Xristianlığın genişlənməsi İslam fütuhatlarına, xüsusilə Alban məlikliyinin süqutunadək davam etmişdir. Ərəb işğalı ilə əlaqədar 705-ci ildə süqut edən Albaniyanın əksər bölgələri, xüsusilə də Arran, yəni Qarabağın əhalisi İslam dinini qəbul etməyə başlamışlar. Bütün ərəb mənbələrində Aranın ərəblər tərəfindən işğalından danışarkən Qarabağın həmin əraziyə daxil olduğunu yazırlar. Bu barədə Məsudi, Müqəddəsi, Yaqut Həməvi, İbn Xordadbeh, Əbu Musa öz əsərlərində məlumat vermişlər. Məşhur tədqiqatçı-alim İ.Petruşevski də Qarabağda Zərdüştlük, Xristianlıq və İslam dininin geniş yayıldığını xüsusi qeyd etmişdir.

Digər Alban tədqiqatçısı Z.İ.Yamplovski isə yazır ki, Qarabağdakı bütün xristian təmayüllü ibadətgahlar, məbədlər və kilsələr tarixin bütün dövrlərində yerli aborigen xalqa, yəni albanlara məxsus olmuşdur. Bu da bütün dünyaya bəllidir ki, ermənilər əsasən 1828-1830-cu illərdən sonra İrandan və Türkiyədən Qarabağa köçürülmüşlər. Sonralar onlar alban abidələrini erməniləşdirməyə başlayaraq öz adlarına çıxmışlar. Elmi ədəbiyyatda bu haqda çoxsaylı və son dərəcə dəqiq tarixi faktlara söykənən sənədlər mövcuddur.

Azərbaycanda müxtəlif dinlərin mənsubları tarix boyu sülh və mehribanlıq şəraitində yaşasalar da, bu ərazilərdə özlərinə Ermənistan adlı dövlət quran ermənilər həmişə dini və milli ayrı-seçkilik salaraq soydaşlarımıza təcavüz etmiş, əsassız ərazi iddiaları qaldıraraq, 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1994-cü illərdə xalqımıza qarşı dəhşətli soyqırımı cinayətləri həyata keçirmişlər.

Qarabağda İslam dininin yayıldığı dövrlə bağlı deyə bilərik ki, yerli əhali bu dini və onun müqəddəs kitabı Qurani-Kərimi, o cümlədən Məhəmməd peyğəmbərin həyatını sürətlə öyrənməyə başlamışdılar. İslam dini bu torpaqlarda yaşayan türk və qeyri-türk etnoslarının vahid adət-ənənələrin təşəkkülünə, onların bir-biri ilə qaynayıb-qarışma prosesinin daha da dərinləşməsinə gətirib çıxarmışdır.

Sovetləşmə dövrünədək İslam dini Azərbaycanın hər yerində geniş yayılmış, mollaxanalar və mədrəsələr açılmış, ərəb dili və ərəb əlifbası Ərəb Xilafətinin hakimiyyəti altında olan yerlərdə alternativsiz öyrədilməyə cəhd





göstərilmiş və təxminən VIII əsrdən etibarən dünyada yeni bir mədəniyyət – İslam mədəniyyəti formalaşmağa başlamışdır. Bu mədəni inkişaf Ərəb Xilafətinin tərkibində olan Azərbaycandan da yan keçməmişdir. Qısa bir zamanda Əhməd əl-Bərdəyi (XV), Məhəmməd əl-Hənəfi Bərdəyi (XVI), Ömər əl-Beyləqani (XVI), Əhməd əl-Ənsari Gəncəvi Qarabağı (XVI), Molla Mihuyəddin Məhəmməd ibn Əli Qarabağı, Yusif ibn Məhəmməd xan Qarabağı (XVII) kimi məşhur qarabağlı mütəfəkkirlər yetişmişdir. Azərbaycanda ilk məscid VII əsrdə tikilsə də, orta əsrlərdə müşahidə edilən bu inkişafın fonunda Azərbaycanda dini tədris müəssisələrinin, məscidlərin tikintisi geniş vüsət almışdır. Bununla da bütövlükdə İslam mədəniyyətinə və onun ayrı-ayrı sahələrinə dünyanı heyrətə gətirən töhfələr bəxş olunmuşdur. Belə ki, böyük şəhərlərdə mədrəsələr açılmış, Qarabağın qədim yaşayış məskənlərindən olan Beyləqan, Bərdə və Ağdamda, xanlıqlar dövründə isə Şuşada çoxsaylı məscidlər inşa olunmuşdur. XIX əsrdə Şuşada 17 məhəllə məscidi, Yuxarı və Aşağı Gövhər Ağa məscidi, Bərdədə 4 minarəli İmamzadə və qoşa minarəli Cümə məscidi, Tərtər, Füzuli, Ağdam, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Ağcabədidə qoşaminarəli Cümə məscidləri tikilərək istifadəyə verilmişdir.

1922-ci ildə SSRİ-nin yaradılması və Şimali Azərbaycanın da SSRİ-yə daxil olması ilə bolşeviklər və onların yaratdıqları siyasi hakimiyyət Azərbaycandakı dini təsisatlara, din xadimlərinə, dindarlara məqsədli şəkildə divan tutmuş, məscidlərə getmək, ibadət etmək, azan vermək qadağan olunmuş, mollalar, axundlar, imamlar güllələnmiş, yaxud sürgün edilmişlər. Hətta ərəb əlifbasında yazılmış çap məhsulları, Azərbaycan kitab mədəniyyətinin çox böyük hissəsi, nadir inciləri 1935-1938-ci illərdə repressiyaya məruz qalmışdır.

Repressiyalar Qarabağ bölgəsindən də yan keçməmişdir. Qarabağ xanlığı dövründə tikilmiş bir çox məscidlər uçurdulmuş, onların nəzdindəki kitabxanalar tamamilə yandırılmışdır. Təxminən 70 il ərzində insanlarımız milli-mənəvi dəyərlərindən, İslam dinindən uzaqlaşdırılmağa çalışılmışdır.

İkinci Dünya Müharibəsi SSRİ-nin faşist Almaniyası üzərində qələbəsi ilə başa çatdıqdan sonra bəzi bölgələrdə yas mərasimləri zamanı mollaların iştirakına razılıq verilmişdir. Ancaq orada dini təbliğatdan söhbət gedə bilməzdi.

Bütün qadağalara baxmayaraq, İslam dinini insanların şüurundan tamamilə silmək mümkün olmadı. Sovetlər dövründə məscidlər bağlansa da, anbara, mağaza binalarına çevrilsələr də, bu tarix uzun sürmədi.

XX yüzilliyin axırlarından başlayan milli müstəqillik ideyalarının inkişafı nəticəsində Azərbaycan da 1991-ci ildə öz müstəqilliyini bərpa etdi. Bu müstəqillik özü ilə birlikdə dini etiqad azadlığını, söz və vicdan azadlığını, bunların təsbit olunduğu ilk Konstitusiyanın və "Dini etiqad azadlığı haqqında" Qanunun qəbulunu da gətirdi.

Lakin təəssüf ki, bu gün Qarabağdan ağrı-acısız danışmaq mümkün deyil. 1988-ci ilin fevral ayından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddiaları nəticəsində Dağlıq Qarabağ münaqişəsi başladı və erməni-rus hərbi birləşmələri əzəli Azərbaycan torpaqlarını – Qarabağı işğal etdilər. Bu işğal nəticəsində insanlarımız, maddi sərvətlərimiz, tarixi-dini, mədəni abidələrimiz erməni təcavüzünün qurbanı oldu.

Erməni işğalı nəticəsində dövlətimizə, xalqımıza böyük maddi ziyan dəydi. Dəymiş mənəvi ziyanı isə heç bir ölçü və rəqəmlərlə ifadə etmək mümkün deyil. Dağlıq Qarabağ və ona bitişik 7 rayonun işğalının ilk illərində bu ərazilərdə 900-dən çox qeydiyyatda olan, 1500-dən çox isə qeydiyyatda olmayan tarixi və mədəni abidə, 403 tarixi-dini abidə - bunlardan 67-si məscid, 144-ü məbəd və 192 ziyarətgah vardı.

İşğal edilmiş qədim Azərbaycan torpaqlarında 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalmışdır. Bununla yanaşı, 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalareyası, 85 musiqi məktəbi, 103200 ədəd mebel avadanlığı, 5640 musiqi aləti, 481 kinoqurğu, 20 ədəd kinokamera, 423 videomaqnitafon, 5920 dəst milli kişi və qadın geyimləri, 40 komplekt səsgücləndirici, 25 iri və 40 kiçik həcmli attraksion işğal olunmuş ərazilərdə qalmışdır.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal olunmuş ərazilərdə ilk insan məskənlərindən olan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları, o cümlədən qəbiristanlar, türbələr, məzarüstü abidələr, məscidlər, Qafqaz Albaniyasına məxsus məbədlər və xalqımızın digər milli abidələri qəsdən məhv edilir.

Şuşa tarixi memarlıq qoruğu ərazisində işğalçı dövlətin silahlı qüvvələri Aşağı və Yuxarı Gövhər ağa məscidlərini, Köçərli, Mərdinli cümə məscidlərini, dahi bəstəkar Üzeyir Hacıbəyovun, Azərbaycan professional vokal sənətinin banisi Bülbülün ev muzeylərini, Xurşud Banu Natəvanın saray kompleksini, Firudin bəy Köçərlinin, Zöhrabbəyovların malikanələrini, şair, rəssam və alim Mir Mövsüm Nəvvabın, Cabbar Qaryağdı oğlunun, Xan Şuşuniskinin evlərini, ümumiyyətlə şəhərin Şərq memarlığı xüsusiyyətlərini əks etdirən milli üslubda inşa edilmiş əksər yaşayış evlərini, buradakı qədim qəbiristanlığı, böyük Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin türbəsini, Ağdamda Pənah xanın imarətini, Cümə məscidini, Laçın rayonunda Həmzə Sultan və Soltan Əhməd saraylarını, məscidləri, ziyarətgah və ibadətgahları, daş heykəlləri, qədim qəbirləri, kurqanları, tarixi abidə olan yaşayış binalarını vandalcasına dağıtmış, daşınması mümkün olan maddi mədəniyyət abidələrini Ermənistana aparmışlar.

İşğal edilmiş ərazilərdə Azərbaycan xalqının maddi mədəniyyət yadigarlarının dağıdılması prosesi indi də davam edir. İşğalçılar geniş miqyaslı, qeyri peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar.

**Əlizadə NƏCƏFOV,**
*Ağcabədi bölgəsi üzrə şöbənin müdiri, tarix üzrə fəlsəfə doktoru*

# TƏQVİMLƏR TARİXİNDƏN

Dünya ölkələrinin əksəriyyəti miladi təqvimdən istifadə etsələr də, hicri-şəmsi, hicri-qəməri təqvimə müraciət edən ölkələr də az deyil. Lakin bəziləri bu tarixlərin fərqini müəyyənləşdirməkdə, onu dolğun və düzgün araşdırmaqda çətinlik çəkir ki, nəticədə bir sıra dolaşıqlıqlara gətirib çıxardır.

Vaxtın hesablanması hələ qədim zamanlardan bəşər övladını düşündürmüşdür. Keçmişdə insanlar vaxtı müxtəlif təbiət hadisələrinə - gecə-gündüz, isti-soyuq və göy cisimlərinin hərəkətlərinə əsasən müəyyən etməyə çalışırdılar.

İlk dəfə babillilər vaxtı Ay ilə hesablayaraq, birinci təzə Ay ilə ikinci təzə Ay arasında 29,5 gecə-gündüz olduğunu müəyyənləşdirmişlər. Onlar həmin müddəti 1 ay vaxt vahidi götürüb, bəzi ayları 29, bəzilərini isə 30 gün qəbul etmişdilər. Həmçinin babillilər ilk dəfə olaraq 1 ayı həftələrə, həftəni günlərə bölmüşdülər. Beləliklə, qəməri təqvim yaranmışdır.

Sonralar qədim yunanlar Ay təqviminə əsaslanaraq, 12 aydan ibarət olan "bir il"i qəbul etmişdilər. E.ə.VI əsrdə Afinada il 12 ay hesablansa da, hər iki ildə bir ay artıq qalırdı. Beləliklə, 2 illik dövr 25 aya bərabər olurdu.

Günəş sistemli təqvim isə ilk dəfə bizim eradan beş min il əvvəl Misirdə hazırlanmışdır. Qədim Misir kahinləri ili 12 aya bölüb 365 gün düzəltmək üçün 5 artıq gün əlavə etmişdilər. Həmin təqvimin nöqsanları ondan ibarət idi ki, hər 4-cü ilin sonunda bir gecə-gündüz artıq qalırdı. Buna görə də, onlar hər dördüncü ilin 366 gün hesablanmasının məqsədəuyğun olduğu qərarına gəlmişdilər.

Günəş sisteminə əsaslanan və çox sadə olan qədim Misir təqvimi eramızdan 46 il əvvəl Romada İmperator Yuli Sezarın fərmanı ilə qəbul edilmişdi. O, Günəş sisteminə əsaslanaraq, bir ili 365 gün qəbul etmiş və hər 4 ildən bir fevral ayına 1 gün əlavə etmişdi (uzun il). Bu sistem e.ə. 45-ci ildə Yuli təqvimi adı altında qəbul olunaraq tez bir zamanda dünyanın əksər ölkələrinə yayılmışdır.

Günəş sistemli təqvim 1582-ci ildə Papa XIII Qriqori tərəfindən Qriqori (yaxud Qriqorian) təqvimi adlandırılmışdır. Bu təqvimi həmin il İtaliya, İspaniya, Portuqaliya, Belçika, Fransa, Danimarka, 1700-cü ildə Almaniya, Norveç, 1752-ci ildə İngiltərə, 1783-cü ildə Yaponiya, 1911-ci ildə Çin, 1925-ci ildə İran, 1926-cı ildə Türkiyə qəbul etmişdir.

Qriqori təqvimi Rusiyada 1699-cu ildən tətbiq edilmiş və ilin ilk günü yanvarın 1-i müəyyən olunmuşdur (həmin vaxtadək ilin ilk günü sentyabrın 1-i hesablanırdı). Bir mühüm məsələni də qeyd edək ki, Rusiyada bu təqvim köhnə sistemə (yəni Yulian sisteminə) əsaslanırdı. Yeni Qriqori təqviminin düzəlişləri həmin təqvimə keçirilməmişdi.

Məlumdur ki, Papa XIII Qriqori təqvimdə bir sıra əhəmiyyətli dəyişikliklər etmiş və onu daha da dəqiqləşdirərək göstərmişdir ki, hər 128 ildən sonra bir gün artıq qalır. Həmin "bir gün"lər müvafiq surətdə artaraq 1917-ci ildə Oktyabr inqilabına qədər 13-ə çatmışdı. Beləliklə, Qriqori təqvimi ilə (yeni stillə) Yunan təqvimi (köhnə stil) arasında 13 gün fərq vardı. Sovet dövlətinin qəbul etdiyi dekretə əsasən, 1918-ci il yanvarın 25-də ilk təqvim (Qriqori) qəbul edilmiş və "13 gün" fərqini aradan qaldırmaq üçün fevralın 14-də (köhnə sistemlə 1-də) yeni üsula keçilmişdir.

Təqvimlər arasındakı fərq və vaxtın hesablanması məsələsi Yaxın və Orta Şərq alimlərinin də diqqət mərkəzində olmuşdur. Məşhur müsəlman alimi əl-Biruni (973-1048) özündən əvvəlki alimlərin təqvimini tənqid etmiş və göstərmişdir ki, Günəş sisteminə əsaslanan təqvimə görə, 1 il - 365 gün, 5 saat, 48 dəqiqədir.



Görkəmli Azərbaycan alimi Nəsrəddin Tusinin (1201-1274) təqvimlər məsələsinə dair xidmətini xüsusi qeyd etmək lazımdır. Onun rəhbərliyi altında tikilən Marağa rəsədxanasında görülən əsas astronomik iş "Zic elxani" adlanan kataloqun tərtibidir. Bu kataloqun xeyli hissəsi astronomik cədvəllərdən ibarətdir; onun böyük bir qismi təqvimlər məsələsinə həsr olunmuşdur.

N.Tusi "Zic elxani"də göstərir ki, Çin və Türküstan xalqları gecə-gündüzü on iki hissəyə bölmüşdülər və bunlardan hər birinə "çağ" deyirdilər. Və əlavə edir ki, çinli astronomlar hər ili 365 gün 5 saat 48 dəqiqə 12 saniyə qəbul etmişdilər.

Hazırda bir sıra ölkələrin, o cümlədən Azərbaycanın işlətdiyi miladi tarix İsa peyğəmbərin (ə) anadan olduğu gündən hesablanır. Miladi tarixi qəbul etməyi eramızın IV əsrində Roma rahibi Dionis məsləhət görmüşdü. Bu fikri İtaliya 532-ci ildə, Fransa VIII əsrdə, Rusiya isə 1699-cu ildə qəbul etmişdi.

Müsəlman ölkələrinin işlətdiyi hicri tarix isə Məhəmməd peyğəmbərin (ə) Məkkədən Mədinəyə hicrət etdiyi ildən (miladi 622-ci il 16 iyuldan) hesablanır. Bu tarix də iki yerə bölünür: hicri-qəməri və hicri-şəmsi.

Qeyd etmək lazımdır ki, ərəblər eramızdan təxminən min il əvvəl qəməri təqvim işlədirdilər. Buna görə də hicri tarix qəbul olunanda qəməri təqvim əsas götürüldü və hicri-qəməri adı ilə qeyd olundu. Xəlifə Ömər miladi 638-ci ildə (hicri 16-cı ildə) hicri tarixi rəsmi olaraq qəbul etmişdi.

Hicri-qəməri aylar bunlardır: Məhərrəm; Səfər; Rəbiül-əvvəl; Rəbiül-axır; Cəmadiül-əvvəl; Cəmadiül-axır; Rəcəb; Şaban; Ramazan; Şəvval; Zilqədə; Zilhiccə.

Hicri-şəmsi tarix isə Günəş təqviminə əsaslanır və müddəti 365 gündür. Hicri-şəmsi tarixin birinci altı ayı 31 gün, sonrakı 5 ayın hər biri 30 gün, sonuncu 12-ci ayı isə adi günlərdə 29 gün, hər iki ildən bir 30 gündür. Hicri-şəmsi tarix İranda 1925-ci ildə qəbul olunmuşdur. Hicri-şəmsi (İran) ayları bunlardır: Fərvərdin; Ordubehişt; Xordad; Tir; Mordad; Şəhrivər; Mehr; Aban; Azər; Dey; Bəhmən; İsfənd.

Müsəlmanların yaşadıqları Şərq ölkələrinin əksəriyyətində yeni il martın 21-dən hesablanır.

Hicri tarixi miladi tarixə və əksinə, miladini hicri tarixinə sadə üsulla çevirmək mümkündür. Hicri-şəmsini miladiyə çevirmək üçün həmin tarixin üstünə 622 gəlmək və ya miladi tarixi hicri-şəmsiyə çevirmək üçün həmin tarixdən 622 çıxmaq lazımdır. Məsələn, hazırda biz miladi 2017-ci ildəyik. 2017-ci ili hicri-şəmsiyə çevirmək üçün bu hesablamanı aparırıq: 2017-622=1395. Deməli, miladi 2017-ci il hicri-şəmsinin 1395-ci ilinə müvafiqdir.

Hicri-qəmərini miladi tarixə çevirmək üçün isə, başqa qayda tətbiq edilir.

Hicri-qəmərinin 33 ili hicri-şəmsinin 32 ilinə bərabərdir. Çünki hicri-qəməri ili 365 gündür. Buna görə də hər 32 ildən bir hicri-qəməri il hicri-şəmsi ilə nisbətən bir il artıq olur. Hazırda bu iki tarix arasında 43 il fərq var.

Yuxarıda hesabladıq ki, miladi 2017-ci il hicri-şəmsinin 1395-ci ilinə müvafiqdir. Onda, 1395-ci ilin üzərinə 43 əlavə etsək, 1438 alınacaq. Beləliklə, hazırda miladi tarixlə 2017-ci il, hicri-şəmsi tarixlə 1395-ci il, hicri-qəməri tarixlə 1438-ci ildir.

**Miryəhya BƏDİROV,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbə müdiri*

# DÖVLƏT KOMİTƏSİNİN ƏMƏKDAŞI MALAYZİYADA TƏLİMDƏ İŞTİRAK EDİB

Avqustun 13-dən 17-dək Kuala-Lumpur şəhərində Malayziya Texniki Əməkdaşlıq Proqramı çərçivəsində Malayziya Xarici İşlər Nazirliyinin dəstəyi və "Taha Alam" təşkilatının təşkilatçılığı ilə "Ən yaxşı təcrübələri əhatə edən Həcc ziyarətlərinin idarəedilməsi" mövzusunda təlim keçirilib. Sözügedən təlimdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsini (DQİDK) Xarici əlaqələr şöbəsinin müdir müavini Rəfi Qurbanov təmsil edib.

Təlimə Azərbaycanla yanaşı, Banqladeş, Bruney, Fici adaları, Filippin, Myanmar, Maldiv adaları, Vyetnam, Qana, Pakistan İslam Respublikası və Şri-Lanka kimi ölkələrdən ümumilikdə15 nəfər qatılıb.

Təlimin ilk günü on bir ölkəni təmsil edən iştirakçılarla tanışlıqdan sonra "Taha Alam" təşkilatının fəaliyyəti haqqında ümumi məlumat verilib. Bildirilib ki, təlimin əsas məqsədi Həcc ziyarətlərinin təşkilində qabaqcıl təcrübələrin öyrənilməsi, eləcə də bu sahədə Malayziya hökumətinin əldə etdiyi təcrübənin bölüşdürülməsidir.



Təlim proqramı çərçivəsində iştirakçıların Malayziyanın tarixi şəhəri olan Malakaya səfəri təşkil olunub. "Tabunq Həci" təşkilatının şəhərdəki regional ofisi ilə tanışlıqdan sonra malayziyalı zəvvarlara Həcc ziyarətindən əvvəl keçirilən təlimlər və kurslar haqqında məlumat verilib. Daha sonra təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Təlim iştirakçıları öz ölkələrinin dövlət-din münasibətləri sahəsində həyata keçirdiyi siyasət, mədəniyyət və həcc ziyarətlərinin təşkili ilə bağlı geniş təqdimatlar edilib. DQİDK-nın əməkdaşı Rəfi Qurbanov ölkəmiz haqqında məlumat verərək bildirib ki, əhalinin 96 faizi müsəlmanlardan, 4 faizi isə qeyri-müsəlmanlardan ibarətdir. Ölkəmizin dini müxtəlifliyinə toxunan R.Qurbanov diqqətə çatdırıb ki, respublikamızda hazırda 760-dan çox müsəlman, o cümlədən 17-si xristian, 8-i yəhudi, 2-si Bəhai və 1-i Krişna şüuru olmaqla ümumilikdə 28 qeyri-müsəlman dini icma fəaliyyət göstərir. Azərbaycan-Ermənistan münaqişəsindən danışan Dövlət Komitəsinin rəsmisi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan ərazilərimizdə İslam dininə aid yüzlərlə ibadət yeri və abidənin vəhşicəsinə dağıdıldığını, təhqir olunduğunu və erməniləşdirildiyini deyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti haqqında danışan Rəfi Qurbanov dövlət-din münasibətləri sahəsində görülən işlər, bu sahədə mövcud olan qanunvericilik mexanizmi və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ayrılan maliyyə yardımları haqqında geniş məruzə ilə çıxış edib. Çıxışın sonunda təşkilatçılara və təlim iştirakçılarına DQİDK tərəfindən ingiliscə çap edilmiş "Azərbaycanda dini müxtəliflik" adlı kitabça təqdim olunub.

# QURBAN BAYRAMI: BİRLİYİN VƏ YARDIMLAŞMANIN TƏCƏSSÜMÜ

Qədim tarixə malik və dinimizin ən möhtəşəm ayinlərindən olan Qurban bayramı hər il İslam aləmində böyük sevinc və ehtiramla qeyd olunur. Üç səmavi dinin - Yəhudilik, Xristianlıq və İslamın hər birində müxtəlif formada mövcud olan bu bayram İslamda xüsusi mahiyyət və əhəmiyyət daşıyır. Onun əsas mahiyyəti Allah yolunda kəsilmiş qurbanlığı imkansız, yoxsul və kimsəsiz şəxslər arasında bölmək, onları sevindirməkdir. Dinimizə görə, bayram günlərində uşaq və qocalar evlərini, şəhid ailələrini ziyarət etmək, sevinc və kədərlərinə şərik olmaq, onlara bayram sovqatı vermək savab əməllərdəndir. O cümlədən, Vətən uğrunda sağlamlığını itirən qaziləri, təbii fəlakətlərdən ziyan çəkmiş kimsələri sevindirmək də təqdir olunan hərəkətlərdəndir. Bu bayramda ahıllar, maddi cəhətdən sıxıntı yaşayan yaşlılar da yaddan çıxarılmamalı və ziyarət olunmalıdır.

Qurban bayramı təkcə Uca Tanrının buyurduğu vacib əməl, dini ayin deyil, həmçinin birlik, bərabərlik, qardaşlıq və yardımlaşmanın təcəssümüdür. Onun ən gözəl xüsusiyyətlərindən biri də bu ayində din, məzhəb ayrı-seçkiliyinə yol verilmədən istənilən kimsəsizə və yoxsula varlının imkanından bəhrələnmək haqqının verilməsidir.

Bu gün Azərbaycan Respublikası müstəqil və demokratik dövlət quruculuğu yolunda inamla irəliləyir. Bütün sahələrdə əldə etdiyimiz uğurlar göz qabağındadır. Dünyəvi dövlətimiz bütün din mənsublarına, o cümlədən əhalinin əksəriyyətini təşkil edən müsəlmanlara



böyük hörmətlə yanaşır.

Öz tarixinə, milli və dini ənənələrinə həmişə sadiq qalan Azərbaycan xalqı artıq neçə ildir ki, Qurban bayramını yüksək səviyyədə qeyd edir. İslamla bağlı əlamətdar günlərə və dini bayramlara böyük önəm verən, onların keçirilməsi üçün lazımi şərait yaradan Ulu Öndər Heydər Əliyev çıxışlarının birində demişdir: "Mübarək Qurban bayramı adətən insanlar arasında umu-küsülərin, kin-küdurətin aradan qaldırılması, yaxınların yad olunması, cəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl münasibət olmuşdur".

Bu fikir Qurban bayramının cəmiyyət və insanlar arasında nə qədər önəm daşıdığının bariz nümunəsidir.

Dövlətimiz vicdan azadlığına, xüsusən onun tərkib hissəsi olan din azadlığına böyük diqqət göstəririr. Ölkə vətəndaşları azad, sərbəst və müstəqil şəraitdə öz dini etiqadlarını həyata keçirirlər. Dinin dövlətdən ayrı olmasına baxmayaraq, Qurban və Ramazan kimi dini bayramlar dövlət səviyyəsində qeyd edilir.

Hər il Qurban bayramı münasibətilə Prezident İlham Əliyevin Azərbaycan xalqını təbrik etməsi bu bayramın əhəmiyyətinə verilən yüksək qiymətdir. Ölkə başçısının qeyd etdiyi kimi, müqəddəs Qurban bayramı İslamın din kimi tamamlanması və mənəvi-əxlaqi qurtuluş yolu olaraq insanlara bəxş edilməsilə də əlamətdardır. Bu bayram günündə müsəlmanlar Uca Yaradana yaxınlığın, ilahi dəyərlərə bağlılığın sevinc və fərəhini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Prezident İlham Əliyev çıxışların birində demişdir: "Hər il ölkəmizdə böyük təntənə ilə keçirilən Qurban mərasimləri cəmiyyətimizdə bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq təcəssümünə çevrilir".

Rəvayət olunur ki, Həzrət Əlidən (ə) "bayram nədir", - deyə soruşduqda, imam belə cavab vermişdir: "Günahsız keçən hər gün bayramdır".

Hər günümüzün bayram olması arzusuyla xeyirli bayramlar!

**"Cəmiyyət və Din"**

# XURAFATLA MÜBARİZƏDƏ TƏHSİLİN ROLU

Bütün cəmiyyətlərin və bu cəmiyyətləri təşkil edən insanın cövhəri təhsildir. Təhsil inkişafın, tərəqqinin təməlində dayanan bir anlayışdır. Dinimizə görə, elm öyrənmək, təhsillə məşğul olmaq kişi və ya qadın olmasından asılı olmayaraq, bütün müsəlmanlara vacibdir. Elmli və bilikli olan şəxsin düşüncəsi, dünyaya baxış pəncərəsi cahil bir adamın düşüncəsindən və dərrakəsindən müsbət mənada xeyli fərqləndiyi üçün Qurani-Kərimin "Zumər" surəsinin 9-cu ayəsində bu barədə buyurulmuşdur: "De: Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!"

İslam dini yarandığı gündən etibarən insanları düşünməyə təşviq etmişdir. Yəni, Uca Yaradan bizdən hər hansı bir əməli kor-koranə şəkildə deyil, dərk edərək, düşüncəli şəkildə yerinə yetirməyi istəmişdir.

İslam elminin ana qaynağı hesab edilən Qurani-Kərim məhz "Oxu" əmri ilə başlayır. Bir dinin ki bəşəriyyətə ilk əmri "Oxu" kəlməsidir, məhz bu aspektdən çıxış edərək, demək olar ki, İslamın elmə, təhsilə münasibəti necə yüksək dəyərlər üzərində qurulub. Həmçinin, Qurani-Kərimdə dəfələrlə vurğulanan elm kəlməsi insanları elmli olmağa sövq edir. Təbii ki, elm sahibi olmaq üçün vasitə məhz təhsildir. Başqa ifadə ilə desək, elmə gedən yol təhsildən keçir.

Allah-Təala "düşünmək", "təfəkkür etmək", "fikirləşmək", "ağıl, təfəkkür sahibi olmaq" kimi əmrləri bizə Qurani-Kərim vasitəsilə dəfələrlə bildirmişdir. Sadalanan əmrlərin əsasında elmin özəyini təşkil edən ağıl durur. Uca Yaradan insanı xəlq edərkən ona məhz ağıl nemətini bəxş etməklə, onu yaradılmışların ən üstünü etmişdir. Çünki Allah-Təala insandan fərqli olaraq yaratdığı heç bir canlıya ağıl nemətini, düşünmək qabiliyyətini bəxş etməmişdir. Bunu yalnız biz insanlara hədiyyə etmişdir.

Meydana gəlməsində əsas məqsədi şəxsiyyət yetişdirmək, cəmiyyəti dəyişdirmək olan İslam dini bu mürəkkəb missiyanı həyata keçirmək üçün məhz elm və təhsil kimi vasitələrdən istifadə etmişdir. Qurani-Kərimin Ənam surəsinin 80-ci ayəsində Uca Yaradan belə buyurmuşdur: "Rəbbim hər şeyi elmlə (Öz əzəli elmi ilə) ehtiva etmişdir. Məgər düşünüb ibrət almırsınız?"

Lakin təəssüflə qeyd etməliyik ki, istər tarixin müəyyən dövrlərində, istərsə də yaşadığımız müasir zamanda müsəlmanların yaşadığı cəmiyyətlərdə bir sıra xurafat nümunələri mövcud olmuş və bu gün də öz varlığını davam etdirməkdədir. Bir sıra hallarda din və cəhalətin varolma səbəbi kimi yanlış olaraq din göstərilmişdir. İslam dinində nəinki xurafat elementləri mövcuddur, əksinə, dinimiz ortaya çıxdığı gündən etibarən xurafat və cəhalətlə mübarizə aparmaqdadır. Daha dəqiq desək, İslam dininin yaranma səbəblərindən biri məhz xurafat və cəhalətdir.

Xurafat dinin kobud şəkildə təhrif edilərək insanlara tam fərqli bir formada çatdırılmasıdır. Bu zaman din bizə Allah istəyən formada deyil, bir sıra insanların təfəkkürünün məhsulu kimi gəlib çatır ki, bu da çox təhlükəli bir tendensiyadır. Bəzən cəmiyyətdə xurafat o qədər geniş vüsət alır ki, insanlar onu həqiqi din hesab edərək, özləri də fərqinə varmadan onun icraçılarına çevrilirlər. Bu kimi halların qarşısı alınmadıqda və bu proses uzun müddət davam etdikdə xurafat insanların gündəlik həyat tərzinə çevrilir və onunla mübarizə aparmaq çətinləşir. Həmin insanlara nə qədər həqiqəti başa salmaq cəhdləri olsa da, onlar bunu qəbul edə bilmir və nəticədə dini öz həyatlarında bir ömür boyu yanlış yaşamağa məhkum olurlar.

Ölkəmiz müstəqilliyini bərpa etməmişdən öncə sovetlər dövründə dinin qadağan edilməsi nəticəsində xurafat "din" adı altında genişlənməyə başlamışdı. Ölkəmizin öz suverenliyini bərpa etməsindən sonra İslam dini yenidən ölkəmizdə geniş vüsət almağa başlasa da, insanlar arasında xurafat yenə də mövcudluğunu qoruyub saxlaya bilmişdir. Maraqlı cəhət ondan ibarətdir ki, bəzi məqamlarda dini qəbul edən insanların sayı artdıqca, bununla bərabər xurafat da artır. Bunun səbəbini dində axtarmaq düzgün deyildir. Cəmiyyətdə xurafatın geniş yayılmasının səbəbi əsasən haqqında söhbət açdığımız təhsil və digər sosial səbəblərlə bağlıdır. Xurafatın yayılmasının əsas səbəbi dünyəvi təhsil ilə dini biliklərin paralel formada və lazımi səviyyədə aparılmamasıdır.

Yaşadığımız cəmiyyətdə xurafatın yayılmasına bilavasitə olmasa da, dolayısı ilə dinlə bağlı bəzi amillər də təsir edir. Dindar hesab edilən kontingentin artması ilə xurafatın yayılmasındakı mütənasiblik buna sübutdur. Başqa sözlə, dindarlaşma prosesində kəmiyyət göstəricisi artdıqca, bu, keyfiyyət məsələsinə mənfi təsir göstərməməlidir. Əgər cəmiyyətdə dindarlıq səviyyəsi artarsa, biz çalışmalıyıq ki, bu artım normal və sağlam təbliğat nəticəsində baş versin. Əks halda, bu dindarlığın nəticəsi xətalı və sağlam olmayan dinin yayılmasına rəvac verəcəkdir. Səbəb-nəticə qanununa uyğun olaraq da bu hal xurafatın yayılması ilə nəticələnəcəkdir.

Xurafat dini radikalizm, dini fanatizm və bu kimi digər ciddi problemlərin ilkin formasıdır. Yəni, xurafat adıçəkilən problemlərə gedilən yolun başlanğıcıdır. Qeyd edilən ciddi problemlərin baş verməməsi üçün biz ilk olaraq xurafatın yayılmasının qarşısını almağa çalışmalıyıq. Cəmiyyət üçün ciddi problemə çevrilmək ehtimalı olan bəzi məsələlər mövcuddur ki, bunlara nümunə kimi, bəzi özünü "din alimi" adlandıran şəxslər tərəfindən dünyəvi təhsilə qarşı çıxışlar, insana təkcə dini təhsilin kifayət etməsi, uşaqların, xüsusən qız uşaqlarının təhsildən uzaqlaşdırılması, oğlan və qız uşaqlarının ayrıca təhsil alması barədə çağırışlar, erkən nikah, falçılıq və s. göstərmək mümkündür. Təəssüfləndirici məqam ondan ibarətdir ki, bu kimi xurafat elementləri insanlara İslam pərdəsi altında çatdırılır.

Nə zaman cəmiyyətdə xurafat yaranır? O zaman ki, cəmiyyətdə elm, təhsil, maarifçilik zəifləyir, məhz o zaman da xurafat və cahillik həmin cəmiyyətdə inkişaf etməyə başlayır. Bilgisizlik və elmsizlik xurafatın əsas yaranma səbəbidir.

Azərbaycanın dahi klassikləri – Mirzə Fətəli Axundzadə, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və digər ziyalılarımız hər zaman öz fəaliyyətlərində xurafata qarşı mübarizə aparmışlar. Onlar insanları elmdən uzaq, nadanlıq və cəhalət içində olan cəmiyyətdə yaşamaq əvəzinə elmli, mədəni, cəhalətdən uzaq bir toplumda ömür sürməyə dəvət etmişlər. Lakin onların bu mübarizəsi əksər hallarda bir çox insan tərəfindən dinin əleyhinə göstərilsə də, zaman keçdikcə hamıya aydın olur ki, bu, məhz cəmiyyətdə mövcud olan xurafat və cahilliyə qarşı olan mücadilə olmuşdur.

Yaşadığımız cəmiyyətdə xurafata son qoymaq üçün həm ideoloji, həm mənəvi, həm də elmi müstəvidə işlər aparılmalıdır. Cəmiyyətimizdə xurafat, cahillik bəlasının kökünü kəsmək üçün ilk növbədə ailənin hər bir fərdinin, xüsusilə valideynlərin üzərinə çox böyük məsuliy- yət düşür. Onlar özləri xurafat girdabına yuvarlanmamaq üçün elmli, savadlı olmalıdırlar ki, nəticədə övladlarını da xurafatdan uzaq, elmli və cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi formalaşdıra bilsinlər. Bundan başqa, xurafatla mübarizədə ziyalı insanların üzərinə çox böyük məsuliyyət düşür. Necə ki, tarix boyu ziyalılarımız xurafat və cəhalətə qarşı barışmaz mövqe sərgiləmişlər, müasir zamanımızda da savadlı, ziyalı və el ağsaqqalarımız bu mübarizədə qətiyyət nümayiş etdirməlidirlər.

**Rövşən Nəzərov,**
ilahiyyatçı

# ALMANİYADA İSLAM

Mərkəzi Avropada yerləşən və 16 federal əyalətdən ibarət olan Almaniya Federativ Respublikası təkcə "Köhnə qitə"nin deyil, dünyanın ən inkişaf etmiş ölkələrindən biridir. Ərazisi 357 min kvadratkilometr, əhalisi isə təxminən 82 milyon olan Almaniya vahid dövlət kimi ilk dəfə 1871-ci ildə Fransa-Prussiya müharibəsindən sonra Otto fon Bismarkın başçılığı altında birləşdirilib. Etnik baxımdan əhalisinin 11 faizə qədəri (təxminən 10 milyon) alman vətəndaşlığı olmayan əcnəbilərdir ki, onların da təxminən 1,5 milyonu türklərdir. İkinci ən böyük əcnəbi qrupu isə polyaklardır. Sonrakı yerləri isə İtaliya, Rumıniya, Suriya, Yunanıstan, Xorvatiya və digər ölkələrdən olan mühacirlər bölüşürlər. Son illər baş verən müharibələr səbəbilə Almaniyaya Yaxın Şərq və Şimali Afrikadan mühacir axını ölkənin etnik mənzərəsində də dəyişiklik yaradıb və burada müsəlmanların sayı artıb. Ölkədə təxminən 4,5 milyon nəfər müsəlman yaşayır ki, bu da ümumi əhalinin 5,5 faizi deməkdir.

Almaniya torpağına gələn ilk müsəlmanlar 1683-cü ildə Vyananın mühasirəsi vaxtı əsir düşmüş türk əsgərləri olublar. Mənbələrin bildirdiyinə görə 1741-ci ildə Prussiya kralı II Fridrixin ordusunda Bosniya və Albaniyadan olan 1000 nəfər müsəlman xidmət edib.

XVIII-XIX əsrlərdə əsgərlərdən başqa, müsəlman tələbələr, diplomatlar və tacirlər də Almaniyaya gəlməyə başlayıblar. Bunun əsas səbəblərindən biri Osmanlı imperiyası ilə Prussiya arasında bağlanmış saziş olub.

Almaniyada ilk məscid 1915-ci ildə Berlin şəhərində inşa edilib, lakin bir neçə ildən sonra qəzalı vəziyyətdə olduğuna görə sökülüb. Günümüzədək mövcud olan ən qədim müsəlman ibadət ocağı isə Berlindəki Əhmədiyyə məscididir (1924-1927-ci illərdə tikilmişdir). İlk müsəlman icması isə 1922-ci ildə yaradılıb.

XX əsrin 20-ci və 30-cu illərində Almaniyada müsəlman təşkilatları və təhsil müəssisələri yaradılıb. Alman-Müsəlman Cəmiyyəti, Ümumdünya İslam Konqresi tərəfindən yaradılmış İslam Kollokviumu və başqa təşkilatlar buna misal ola bilər. Nasistlərin hakimiyyətə gəlməsindən sonra isə müsəlmanları təqib etməyə, qətlə yetirməyə və ölkədən çıxarmağa başlayıblar. Digər tərəfdən, nasistlərin müsəlmanlardan öz təbliğatları üçün istifadə etdikləri faktlar da mövcuddur.

## İslamın Almaniyada ikinci tarixi

1961-ci ildə Türkiyə ilə əcnəbi işçilərin cəlb olunması sazişindən sonra bu ölkədəki İslam yeni mərhələyə qədəm qoyub. Bu sazişlə Türkiyədən Almaniyaya "qastarbayter" (qonaq işçi) adlanan işçi axını başlayıb. Az sonra Mərakeş, Tunis və başqa ölkələrlə də bu cür sazişlər imzalanıb.

Beş il yaşadıqdan sonra mühacirlər Almaniyada daimi yaşamaq hüququ əldə edirdilər. Onların bir çoxu sonradan ailələrini də özləri ilə aparır, yaxud da Almaniyada ailə həyatı qururdu.

Müsəlman mühacirlərin ölkədə daimi qalması onların ibadət etmələri üçün məscidlərin inşasını zəruri edirdi. 1957-ci ildə müsəlman iş adamlarının təşəbbüsü ilə Hamburq və Aaxen şəhərlərində yeni məscidlər tikilir.

2015-ci ilin dekabrına dair statistikaya əsasən, ölkənin müsəlman əhalisinin sayı təxminən 4,4-4,7 milyon nəfər olub. Bunun yarısı türk əsilli müsəlmanlar, qalanı isə Yaxın Şərq, Cənub-Şərqi Avropa, Cənubi və Cənub-Şərqi Asiya ölkələrindəndir. Müsəlman əhalinin təxminən əlli faizi alman vətəndaşlarıdır. Almaniya müsəlmanları ölkədə mövcud olan müxtəlif təşkilatlar yaradıblar. Dörd ən böyük təşkilat – Almaniya Müsəlmanlarının Mərkəzi Şurası, Türk-İslam Dini İşlər İttifaqı, Almaniya Federativ Respublikası İslam Şurası və İslam Mədəniyyət Mərkəzləri Birliyi 2007-ci ildə Müsəlmanların Koordinasiya Şurasında birləşib.

Almaniya müsəlmanlarının təxminən dörddə üçü İslamın ən böyük cərəyanı olan sünni məzhəbinin nümayəndələridir. Sonrakı yerlərdə isə ələvilik, şiəlik, sufilik və başqa təriqətlərin nümayəndələri gəlir.

Ölkədəki müsəlman əhalinin müəyyən hissəsini azərbaycanlılar təşkil edir. Almaniyadakı soydaşlarımızın əksəriyyəti Şərqi Türkiyə, İran və Azərbaycandan köçüblər. Bu ölkədə ümumilikdə 120-140 min arası, bəzi məlumatlara görə isə 200 mindən çox azərbaycanlı yaşayır ki, bunların da təxminən 4 min nəfəri Azərbaycan vətəndaşlarıdır. Əksəriyyəti İslamın şiə məzhəbinin nümayəndələridir.



Almaniyaya ilk azərbaycanlı mühacirlər Cənubi Azərbaycandan köç ediblər. 1960-cı illərdən etibarən Şərqi Türkiyədə yaşayan azərbaycanlılar Qərbi Almaniyaya mühacirət etməyə başlayıblar. Bundan əlavə, SSRİ-nin dağılmasından sonra iqtisadi çətinliklərə görə həmvətənlərimiz Almaniyaya mühacirət ediblər. Azərbaycanlılar əsasən Berlin, Bremen, Hamburq, Mayns, Frankfurt-Mayn kimi iri şəhərlərdə yaşayırlar.

## İslamofobiya

Ancaq təəssüflər olsun ki, digər Qərb ölkələrində olduğu kimi, Almaniyada da son dövrlər islamofobiya, ksenofobiya və dini diskriminasiya halları artmaqdadır. 2001-ci ilin 11 sentyabrında ABŞ-da "Əl-Qaidə" terror təşkilatı tərəfindən törədilən və üç minə yaxın insanın ölümü ilə nəticələnən terror hadisəsindən sonra bu kimi hallar daha da artmış, bəzi qüvvələr İslam və terror anlayışlarını eyniləşdirməyə başlayıblar. Qərbin ultrasağçı və populist partiyaları müsəlmanlara düşmən kimi yanaşır, onların cəmiyyətdən təcrid olunmalarını istəyirlər. Bəzi Qərb mətbuatında da müsəlman ölkələri inkişafdan geri qalmış, insan hüquqlarının olmadığı, qadınların cəmiyyət həyatında rol oynamadığı yer, İslam isə qeyri-humanist, antiliberal din kimi göstərilir. Müsəlmanlar potensial terrorçu hesab olunur, hava limanlarında daha ciddi yoxlanışa məruz qalırlar.




2005-ci ilin sentyabrında Danimarkanın "Yullands-Posten" qəzetində Məhəmməd (s) peyğəmbərin karikaturalarının dərc edilməsi müsəlman dünyasında kəskin etirazlara səbəb olmuş və bu etirazlar əksər Qərb mediası tərəfindən dini etiqad və söz azadlığına müdaxilə kimi qiymətləndirilib. 11 sentyabr hücumlarından sonra İslam düşmənçiliyi təkcə sözlə məhdudlaşmır, məscidlərin təhqir olunması, müsəlmanlara hücumlar, qətllər şəklində təzahür edir. Bu hadisələrdən on il sonra 2011-ci ilin iyulun 22-də Norveçin paytaxtı Osloda və Utoya adasında 77 nəfərin ölümü ilə nəticələnən terror hadisələri baş verib. Hadisəsi törədən xristian, millətçi və mühafizəkar Anders Berinq Breyvik Norveçə müsəlman miqrantların gəlməsinə qarşı idi, onların Norveç genofonduna zərər vurduğunu düşünürdü.

2014-cü ildə Almaniyada islamofob, ksenofob, millətçi, irqçi və ultrasağçı təşkilat PEGİDA (Qərbin islamlaşmasına qarşı vətənpərvər avropalılar) yaradılıb. Təşkilat həmin ilin oktyabrından Avropa və Almaniyanın islamlaşmasına və qaçqınlarla bağlı siyasətinə qarşı etiraz məqsədilə nümayişlər keçirir. Xüsusilə də 2015-ci ildən müharibə və terror aktlarından zərər çəkən Suriya, Əfqanıstan, İraq, Eritreya kimi müsəlman ölkələrindən bir milyondan artıq qaçqının Almaniya ərazisinə sığınması, ölkədə başlanan qaçqın böhranı islamofob və ksenofob meyillərinin artmasına səbəb olub. Bu, özünü qaçqınlara və onların sığınacaqlarına hücumlarda, onların əmlaklarına ziyan vurulmasında, sığınacaqların yandırılmasına cəhdlər edilməsində göstərir.

Bütün bu hallar onu sübut edir ki, demokratiyanın beşiyi və özünü insan hüquqlarının maksimum qorunduğu bir yer hesab edən Avropada islamofobiya, ksenofobiya, digər din və millətlərin nümayəndələrinə qarşı qeyri-tolerant münasibət artmaqdadır.

Avropadan fərqli olaraq, Azərbaycanda isə multikultural dəyərlərə və tolerantlığa böyük önəm verilir, qeyri-İslam dini icmalara da dəstək göstərilir. Ölkəmizdə dini zəmində tarix boyu münaqişə olmayıb. Təsadüfi deyil ki, 2016-cı il ölkəmizdə dövlət başçısı tərəfindən "Multikulturalizm ili" elan olunmuş, müxtəlif dinlərin nümayəndələrinin iştirakı ilə çoxsaylı tədbirlər keçirilib. İslam dini abidələri ilə yanaşı, son illər qeyri-İslam dini abidələri də bərpa edilir, digər dinlərin nümayəndələrinin öz dini ayinlərini rahat yerinə yetirmələri üçün şərait yaradılır. Eyni zamanda, xristianlar və yəhudilər özlərinin dini bayramlarını heç bir maneə olmadan, sərbəst şəkildə qeyd edirlər. Hər il dövlət başçısı tərəfindən Prezidentin Ehtiyat Fondundan dini icmalara maddi yardım ayrılır. Qeyri-İslam dini icmaları da bu yardımdan bəhrələnirlər. Bundan əlavə, ölkəmizdəki məscidlərlə yanaşı, kilsə və sinaqoqlara da müəyyən limit daxilində ödənişsiz təbii qaz verilir. Ölkəmiz dünyanın nadir ölkələrindəndir ki, müxtəlif dinlərin nümayəndələri öz ibadətlərini sərbəst şəkildə yerinə yetirir və dövlətin din siyasəti də bunun üçün əlverişli şərait yaradır.

**Səlim Qəni,**
DQİDK-nın əməkdaşı

# QURBAN BAYRAMI İLƏ ƏLAQƏDAR BAYTARLIQ NƏZARƏTİ GÜCLƏNDİRİLƏCƏK

Qurban bayramı ilə əlaqədar dövlət baytarlıq nəzarətinin gücləndirilməsi haqqında Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən (DBNX) əmr verilib. Əmr respublikanın rayon və şəhərlərində qurbanlıq heyvanların baytarlıq-sanitariya tələblərinə cavab verməyən və ticarət üçün xüsusi ayrılmış yerlərdən kənarda satışının və kəsiminin qarşısının alınması, ətlərin baytarlıq-sanitariya ekspertizasından keçirilməsi məqsədilə verilib.

Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat xidmətindən bildirilib ki, rayon, şəhər baytarlıq idarələrinin rəislərinə Qurban bayramı ilə əlaqədar heyvanların kütləvi halda satışı və kəsimi üçün xüsusi ayrılmış yerlərdə heyvanların sağlamlığının müəyyən olunması, həmçinin baş verə biləcək təhlükəli xəstəliklərin qarşısının alınması, ət və ət məhsullarının qanunvericiliklə müəyyən edilmiş qaydada baytarlıq-sanitariya ekspertizasının aparılmasına dövlət baytarlıq nəzarətinin gücləndirilməsi tapşırılıb. Bu məqsədlə heyvan satışı və kəsimi yerlərinə baytarlıq mütəxəssisləri təhkim edilməlidir.

Əmrdə, həmçinin rayon və şəhərə satış üçün gətirilən iribuynuzlu və xırdabuynuzlu heyvanların sağlamlıqları barədə Baytarlıq Şəhadətnaməsinin olmasının müəyyənləşdirilməsi, bunun nəticəsindən asılı olaraq müvafiq tədbir görülməsi, qurbanlıq heyvanların qəbulunda, saxlanmasında və kəsilməsində baytarlıq-sanitariya qaydalarına ciddi əməl edilməsi də öz əksini tapıb.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Qeydiyyat

**Sabirabad rayonu Dadaşbəyli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117C-740
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu, Dadaşbəyli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əlisoltan Abı oğlu Əliyev

-----------------------------------------------------------------

**Lerik rayonu Züvüç kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117C-741
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik rayonu, Züvüç kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Məmməd Həmzə oğlu Həmzəyev

-----------------------------------------------------------------

**İmişli rayonu Boşçalılar kəndi "İmam Hüseyn" məscidi dini icması**
Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117A-742
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Boşçalılar kəndi, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mətləb Məhəmməd oğlu Əliyev

-----------------------------------------------------------------

**Masallı rayonu Boradigah qəsəbəsi "Həzrəti Əli" məscidi dini icması**
Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117C-743
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Boradigah qəsəbəsi, "Həzrəti Əli" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Zakir Sabir oğlu Abdullayev

-----------------------------------------------------------------

**Sabirabad rayonu Nərimankənd kəndi "Əhli-beyt" məscidi dini icması**
Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117C-744
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu, Nərimankənd kəndi, "Əhli- beyt" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Məhəmməd Mərzi oğlu Əkbərov

-----------------------------------------------------------------

**Xızı rayonu Altıağac qəsəbə məscidi dini icması**
Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117A-745
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Xızı rayonu, Altıağac qəsəbə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ruslan Tahir oğlu Eyvazov

-----------------------------------------------------------------

**Cəlilabad rayonu Maşlıq kəndi "Şəhidlər" məscidi dini icması**
Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117A-746
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Cəlilabad rayonu, Maşlıq kəndi, "Şəhidlər" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Həmzəxan Süleyman oğlu Məhərrəmov

-----------------------------------------------------------------

**Bakı şəhəri Xəzər rayonu Zirə qəsəbəsi "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117B-747
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Xəzər rayonu, Zirə qəsəbəsi, Ordubadi küçəsi, "Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Qədir Hüseynağa oğlu Nəcəfov

-----------------------------------------------------------------

**Qobustan rayonu Nabur kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117C-748
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qobustan rayonu, Nabur kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Babaxan Alxan oğlu Xocaməmmədov

-----------------------------------------------------------------

**Göyçay rayonu Şəkər kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117A-749
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Göyçay rayonu, Şəkər kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Zeynal Adgözəl oğlu Zeynalov

-----------------------------------------------------------------

**Balakən rayonu Şambul kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117A-750
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Balakən rayonu, Şambul kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Qurbanmahama Məhəmməd oğlu Xalayev

-----------------------------------------------------------------

**Lerik rayonu Qosmalian kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117C-751
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik rayonu, Qosmalian kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Hamlet Ağagül oğlu Abdullayev

-----------------------------------------------------------------

**Salyan rayonu Xıdırlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117C-752
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Xıdırlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Bulud Alhüseyn oğlu Abdulrəhmanov

-----------------------------------------------------------------

**Qobustan rayonu Ərəbqədim kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117C-753
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qobustan rayonu, Ərəbqədim kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mahmud Məhəmməd oğlu Mahmudov

-----------------------------------------------------------------

**Göyçay rayonu Qarayazı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117A-754
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Göyçay rayonu, Qarayazı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mətləb Kərim oğlu Əliyev

-----------------------------------------------------------------

**Lerik rayonu Zövnə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117C-755
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik rayonu, Zövnə kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Fəxrəddin Səmədəli oğlu Ziyadov

---

**Ağcabədi rayonu Hüsülü kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117A – 756
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ağcabədi rayonu, Hüsülü kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Elnur Ələkbər oğlu Sadıqov

---

**Qobustan rayonu Göydərə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117C – 757
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qobustan rayonu, Göydərə kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ağakərim Mürşüd oğlu Əşrəfov

---

**Göyçay rayonu Hacağabəyli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117A – 758
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Göyçay rayonu, Hacağabəyli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Anar İlham oğlu Səmədzadə

---

**Ucar rayonu Bağban kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117D – 759
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ucar rayonu, Bağban kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Hümmətov Abdulməmməd Həsən oğlu

---

**Kürdəmir rayonu Cəyli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117A – 760
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Kürdəmir rayonu, Cəyli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ruman Qırımxan oğlu Xasıyev

---

**Qobustan rayonu Şıxzahırlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117C – 761
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qobustan rayonu, Şıxzahırlı məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əzizağa Ağagül oğlu Qaçayev

---

**Bakı şəhəri Xəzər rayonu Buzovna qəsəbəsi "İmam Hüseyn" məscidi dini icması**
Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117B – 762
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, R.Axundov küçəsi, 103, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Validə Niftulla qızı Abbasova

---

## Dəyişiklik

**Xilaskar Yevangelik-Lüteranların Bakı dini icması**
Qeydiyyat tarixi: 14 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 367
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən dini icmanın hüquqi ünvanı Bakı şəhəri, Səbail rayonu, Z.Tağıyev küçəsi, ev 7, mənzil 3 kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, yeni hüquqi ünvan Bakı şəhəri, S.Rəhimov (əvvəlki Kamo) küçəsi, ev 197, mənzil 52 kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi:
28 iyul 2017-ci il

---

**Astara rayonu Kakalos kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 74
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Əlisa Sultan oğlu, Babayev Əlibaba Hacı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Babayev Orucəli Hacı oğlu, Rəhimov Rəhman İdris oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi:
01 avqust 2017-ci il

---

**Lənkəran rayonu Boladi kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C – 654
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Zamin Ələkbər oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Dəyişikliklərin qeydiyyat tarixi:
01 avqust 2017-ci il

---

**Lənkəran rayonu Kənarmeşə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 20 may 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 528
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əkbərov Şamməd Abdulla oğlu, Məlikov Təyyar Dadaş oğlu, Əzizov Polad Rza oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əkbərov Beytulla Şamməd oğlu, Həsənov Sərhəng Bahadir oğlu, Qənbərov Rauf Əlizamin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi:
01 avqust 2017-ci il

---

**Astara rayonu Sığaloni kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 328
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Aslanov Şamirzə Şahab oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Aslanov Bəxtiyar Şamirzə oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi:
17 avqust 2017-ci il

---

**Hacıqabul rayonu Talış kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 72
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nəzərov Abdulhüseyn Məhərrəm oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Ağayev Namaz Ağalar oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi:
17 avqust 2017-ci il

---

**Şəki şəhəri "İmam Əli" məscidi dini icması**
Qeydiyyat tarixi: 30 mart 2010-cu il
Qeydiyyat №-si: 10010A2 – 267
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əskərov Rafiq Abduləli oğlu, İsmayılov Zaur Nüsrət oğlu, Məmmədov Akif Səttar oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Cəfərov Nicat Cəlil oğlu, Əskərov Vüsal Namiq oğlu, Verdiyev Pərviz Ramiz oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi:
25 avqust 2017-ci il

---

## Ləğv olunan dini icmalar

**Suraxanı Zığ qəsəbəsi "Əli qədəmgahı" ziyarətgahı**
Qeydiyyat tarixi: 08.05.2002-ci il
Qeydiyyat №-si: 111
Suraxanı Zığ qəsəbəsi "Əli qədəmgahı" ziyarətgahı təsisçilərinin 14.07.2017-ci il tarixli, 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 01 avqust 2017-ci ildə qeydə alınıb.

---

**Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbə dini icması**
Qeydiyyat tarixi: 20.08.2003-cü il
Qeydiyyat №-si: 208
Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbə dini icması təsisçilərinin 22.05.2017-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvii barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 03 avqust 2017-ci ildə qeydə alınıb.

---

**Sabunçu rayonu Kürdəxanı qəsəbə dini icması**
Qeydiyyat tarixi: 29.10.2003-cü il
Qeydiyyat №-si: 216
Bakı şəhəri Sabunçu rayonu Kürdəxanı qəsəbə dini icması təsisçilərinin 24.07.2017-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 18 avqust 2017-ci ildə qeydə alınıb.

---

## ELAN

***Lənkəran rayonu Yuxarı Nüvədi kənd dini icması (10.01.2005-ci il tarixli, 304 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 28 avqust 2017-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.***

***

***Lənkəran rayonu Yuxarı Nüvəgi kənd dini icmasına məxsus (10.01.2005-ci il tarixli, 304 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) şəhadətnamə və nizamnamə itdiyi üçün etibarsız sayılır.***

# CƏMİYYƏT və DİN

№ 8 (313) / AVQUST 2017-ci il


## “Gələcəyin kitabxanası” ədəbi əsərləri XXII əsrə göndərir



Norveçdə “Gələcəyin kitabxanası” yaradılır. 2014-cü ildə start götürən və 100 ilə hesablanan bu layihə şotland rəssamı Keti Patersona məxsusdur.

Layihəyə görə, XX əsrdə hər yazıçı ildə bir romanını “Gələcəyin kitabxanası”na verir. Toplanan əsərlər 2114-cü ildə nəşr olunacaq. Bu yolla ədəbiyyatın “zaman maşını” icad olunur: müəlliflər əsərlərinin sonrakı taleyindən xəbər tutmadan onu uzaq gələcəyə göndərirlər.

“Gələcəyin kitabxanası”nda artıq Marqaret Etvudun, Devid Mitçellin və Syon Siqurdssonun yeni əsərləri saxlanılır.

Əlyazmalar Oslo ictimai kitabxanasının xüsusi avadanlıq quraşdırılmış zalında saxlanılır. Elektron lövhədə saxlanılan əsərlərin siyahısını görmək mümkündür, lakin bu əsərlər əlçatan deyil.

Üç il bundan əvvəl təşkilatçılar min ədəd şam ağacı əkiblər. Bu da beynəlxalq layihənin hazırkı dövrdə yeganə görünən tərəfidir. Məhz həmin ağaclardan 2114-cü ildə ədəbi əsərlərin çapı üçün kağız hazırlanacaq. Bununla belə, tiraj 1000 nüsxə ilə məhdudlaşıb.

## QADINLARIN BEYNİ KİŞİLƏRİN BEYNİNDƏN DAHA AKTİVDİR



Alimlər bu günə qədər ən böyük beyin görüntüləmə tədqiqatında doqquz klinikanın 46 mindən çox beynin vahid foton emissiyalı kompüter tomoqrafiyasının (SPECT) təsvirlərini müqayisə ediblər. Bununla elm adamları qadın və kişilərin beyinləri arasında fərqi qiymətləndiriblər.

Tədqiqatçılar 119 könüllü və 27 minə yaxın beyin travması, şizofreniya, bipolyar affektiv pozuntu, duyğu və qavrama pozuntuları və diqqət əskikliyi kimi xəstəliklərdən əziyyət çəkən pasiyentlər üzərində araşdırma aparıblar. Ümumilikdə, 128 beyin bölgəsi təhlil edilib. Araşdırma zamanı qadınların beyninin bir çox hissəsinin, xüsusilə fokus və impuls nəzarətlə bağlı prefrontal qabığının və əhvali-ruhiyyə və narahatlıq hissi ilə əlaqəli beynin limbik və ya emosiya sahələrinin kişilərdən daha aktiv olduğu məlum olub. Beynin koordinasiya və vizual mərkəzlərinin isə kişilərdə qadınlardan daha fəal olduğu müşahidə edilib. Həmin müxtəlifliklər qadın və kişilərə fərqli təsir edir. Zərif cinsin nümayəndələrində alzeymer xəstəliyi riski, depressiya, narahatlıq hissi yüksək olduğu halda, kişilərdə davranış problemləri, diqqət əskikliyi və hiperaktivlik riski daha çoxdur.

## Çində ilk internet məhkəmə istifadəyə verilib



Çjeszyan əyalətinin Xançjou şəhərində açılan internet məhkəmə onlayn ticarətdə dələduzluq halları, borc müqavilələri və internetdə müəllif hüquqlarının pozulması ilə bağlı materiallara baxacaq. Bütün prosedurlar məhkəmənin veb-saytı, dinləmələr və hökmün oxunması isə onlayn videotranslyasiya vasitəsilə həyata keçiriləcək.

Qeyd edək ki, şəhərin məhkəmə sistemi artıq kibercinayətlər üzrə bir çox işə baxıb və onların sayı getdikcə artır. 2013-cü ildə məhkəmə bu kimi 600 işə baxıb. Ötən il onların sayı 10 mini ötüb.

### Yadigar söz

**Jan Batist Anri Lakorder**
*fransız katolik vaizi*

**Ruhun yüksəkliyi nə zəka, nə zəfər, nə də eşq ilə ölçülər. O, ancaq yaxşılıqla müqayisə edilə bilər.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Sentyabr - 2017)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:43 | 06:07 | 12:40 | 17:19 | 19:28 | 20:32 |
| 2 | 04:44 | 06:08 | 12:40 | 17:18 | 19:26 | 20:30 |
| 3 | 04:45 | 06:09 | 12:40 | 17:17 | 19:24 | 20:28 |
| 4 | 04:46 | 06:10 | 12:40 | 17:15 | 19:23 | 20:26 |
| 5 | 04:48 | 06:11 | 12:39 | 17:14 | 19:21 | 20:24 |
| 6 | 04:49 | 06:12 | 12:39 | 17:13 | 19:20 | 20:23 |
| 7 | 04:50 | 06:13 | 12:38 | 17:11 | 19:18 | 20:21 |
| 8 | 04:51 | 06:14 | 12:38 | 17:10 | 19:16 | 20:19 |
| 9 | 04:52 | 06:15 | 12:38 | 17:09 | 19:15 | 20:17 |
| 10 | 04:53 | 06:16 | 12:37 | 17:08 | 19:13 | 20:15 |
| 11 | 04:55 | 06:17 | 12:37 | 17:06 | 19:11 | 20:14 |
| 12 | 04:56 | 06:18 | 12:37 | 17:05 | 19:10 | 20:12 |
| 13 | 04:57 | 06:19 | 12:36 | 17:04 | 19:08 | 20:10 |
| 14 | 04:58 | 06:20 | 12:36 | 17:02 | 19:06 | 20:08 |
| 15 | 04:59 | 06:21 | 12:36 | 17:01 | 19:04 | 20:06 |
| 16 | 05:00 | 06:22 | 12:35 | 16:59 | 19:03 | 20:04 |
| 17 | 05:01 | 06:23 | 12:35 | 16:58 | 19:01 | 20:03 |
| 18 | 05:02 | 06:24 | 12:35 | 16:57 | 18:59 | 20:01 |
| 19 | 05:03 | 06:25 | 12:34 | 16:55 | 18:58 | 19:59 |
| 20 | 05:05 | 06:26 | 12:34 | 16:54 | 18:56 | 19:57 |
| 21 | 05:06 | 06:26 | 12:34 | 16:52 | 18:54 | 19:56 |
| 22 | 05:07 | 06:27 | 12:33 | 16:51 | 18:53 | 19:54 |
| 23 | 05:08 | 06:28 | 12:33 | 16:50 | 18:51 | 19:52 |
| 24 | 05:09 | 06:29 | 12:32 | 16:48 | 18:49 | 19:50 |
| 25 | 05:10 | 06:30 | 12:32 | 16:47 | 18:48 | 19:48 |
| 26 | 05:11 | 06:31 | 12:32 | 16:45 | 18:46 | 19:47 |
| 27 | 05:12 | 06:32 | 12:31 | 16:44 | 18:44 | 19:45 |
| 28 | 05:13 | 06:33 | 12:31 | 16:43 | 18:43 | 19:43 |
| 29 | 05:14 | 06:34 | 12:31 | 16:41 | 18:41 | 19:42 |
| 30 | 05:15 | 06:35 | 12:30 | 16:40 | 18:39 | 19:40 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Bilik Fondu Masallı Cümə məscidinə kitablar hədiyyə edib

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu “İslam Həmrəyliyi İli” ilə bağlı bölgələrdə keçirdiyi tədbirlər çərçivəsində Masallı şəhərindəki Cümə məscidinə dini, elmi və bədii kitablar hədiyyə edib.

Dindarlar, ictimaiyyət nümayəndələri və ziyalıların iştirakı ilə təşkil olunan mərasimdə Fondun ölkədaxili layihələr sektorunun müdiri Hacı Abdulla çıxış edib. Sektor müdiri bildirib ki, 2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilməsi ilə bağlı Prezident Administrasiyası rəhbərinin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının icrasına cavabdeh qurumlardan biri də Bilik Fondudur. Tədbirlər Planına müvafiq olaraq məscid, kilsə və sinaqoqlara dini həmrəyliyi təbliğ edən, Azərbaycançılıq məfkurəsinin möhkəmlənməsinə xidmət edən kitablar təqdim olunur.

Bildirilib ki, “Məscid kitabxanası” layihəsi çərçivəsində indiyədək Bilik Fondu tərəfindən 20-dən çox məscidə kitablar hədiyyə edilib. Bu kitablar dövlətimizin başçısının “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli Sərəncamı ilə nəşr olunub.

Masallı Cümə məscidi dini icmasının sədri və axundu Vaqif Mikayılov 2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan etdiyinə görə Prezident İlham Əliyevə dindarlar adından minnətdarlıq edib. İcmanın sədri bildirib ki, iki yüz ildən çox yaşı olan məscid binası təmir olunub və Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qorunur. O, həmçinin məsciddə dini ayin və mərasimlərdə heç bir ayrı-seçkiliyə yol verilmədiyini diqqətə çatdırıb.

Bilik Fondunun dini maarifləndirməyə xidmət edən layihələrini yüksək qiymətləndirən V.Mikayılov dəyərli hədiyyə üçün dindarlar adından Fondun rəhbərliyinə təşəkkürünü bildirib.

## Dəfn mərasimlərində rahibləri əvəz edəcək robot hazırlanıb



Yaponiyanın “Nisseieco” şirkəti yas mərasimlərində buddist rahibləri əvəz edəcək robot hazırlayıb.

BBC-nin məlumatına görə, firmanın nümayəndəsi “Pepper” adlı robotun xüsusilə kənd yerlərində istifadə olunacağını bildirib. O bu addımın atılmasının rahib çatışmazlığı ilə bağlı olduğunu deyib.

Robotun kirayəsi 2 min 194 dollar olacaq.


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV.

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
**Telefon:** 492 65 23; 437 31 15
**Tel/fax:** 497 15 39
492 58 29; 437 31 15
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 345

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894